Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

İkinci sessiya
Yaz

23-cü cild

7 mart 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**YEDDİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**II SESSİYASI İCLASININ**

# PROTOKOLU № 24

*Milli Məclisin iclas salonu.*
*7 mart 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 114 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Səbinə Əliyeva**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).

**Aydın Səfixanlı**, Azərbaycan Respublikası Ombudsman Aparatının rəhbəri.

**Rəşad Novruzov**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin müşaviri.

**Aytən Tarverdiyeva**, Azərbaycan Respublikası Ombudsman Aparatının sektor müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan

hüquqlarının qorunması haqqında illik məruzəsi.

2. "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial

sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respub-

likası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

## Aşağıdakı məsələlər müzakirə edilmişdir:

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə**

**müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səbinə Əliyeva, Zahid Oruc, Vüqar Bayramov, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Fazil Mustafa, Hikmət Məmmədov, Sahib Alıyev, Bəxtiyar Əliyev, Razi Nurullayev, Əli Məsimli, Hicran Hüseynova, Azər Allahverənov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**2. "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Gülşən Paşayeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**3. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**4. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**7. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında",**

**“Validеynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulmaq barəsində”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əli Hüseynli, Hicran Hüseynova, Azər Əmiraslanov, Əhliman Əmiraslanov, Zahid Oruc

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**9. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**10. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiy-**

**mətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verMədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**13. “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 mart 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli deputatlar, xahiş edirəm, gündəliyə də münasibət bildirin. Gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, bu gün biz 14 məsələni müzakirə edəcəyik. Gündəliyin 1-ci məsələsi Milli Məclisin qərar layihəsidir. Qanunvericiliyə uyğun olaraq, parlamentdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinləniləcək. Məsələ ilə əlaqədar İnsan hüquqları üzrə müvəkkil hörmətli Səbinə xanım Əliyeva, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı, İnsan hüquqları üzrə müvəkkilin müşaviri Rəşad Novruzov və Aparatın sektor müdiri Aytən xanım Tarverdiyeva iclasımızda iştirak edirlər. Hörmətli qonaqlar, mən sizi bir daha salamlayıram.

İllik məruzəni təqdim etmək üçün, Səbinə xanım, mən Sizə söz vermək istəyirəm. Buyurun, kürsüyə dəvət edirəm.

**Səbinə Əliyeva,** *Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hər birinizi salamlayır və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında 2024-cü il üzrə məruzəsinin qısa icmalını diqqətinizə çatdırmaq istərdim.

2024-cü il ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi hadisələr, qlobal əhəmiyyətli tədbirlərlə yaddaqalan olmuşdur. İlk dəfə olaraq suveren respublikamızın bütün ərazisində keçirilmiş növbədənkənar Azərbaycan Respublikası prezidentinin seçkiləri və Milli Məclisə növbədən-

kənar seçkilər əlamətdar hadisəyə çevrilmişdir.

Zəfər seçkisi kimi tarixə düşən və vətəndaşların xüsusi seçici fəallığı ilə yadda qalan növbədənkənar Azərbaycan Respublikası prezidentinin seçkiləri xalqımızın demokratiya və milli dövlətçilik ənənələrinə sədaqətini, öz liderinə sarsılmaz etimad və inamını, habelə son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən yüksək dəyəri bir daha nümayiş etdirdi.

Ötən il respublikamız bir çox ölkələrin dövlət və hökumət başçılarının, rəsmi şəxslərin, nüfuzlu ictimai, siyasi, elm və mədəniyyət xadimlərinin qatıldığı beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etmişdir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi, ölkəmizin uğurlu moderatorluğu və yüksək diplomatik məharəti sayəsində inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon dollar məbləğində maliyyə yardımına dair razılığın əldə olunması və digər mühüm qərarların qəbul edilməsi iqlim dəyişmələrinə qarşı mübarizədə mühüm nəticə kimi tarixə düşmüşdür.

Həyata keçirilən kompleks islahatlar nəticəsində əldə olunan nailiyyətlər, iqtisadi suverenliyin möhkəmləndirilməsi və müasir həyat standartlarına əsaslanan sosial rifahın təmini vətəndaşların hüquq və azadlıqlarının daha səmərəli reallaşdırılmasına xidmət etməkdədir.

Ombudsman ölkə Konstitusiyası və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrlə təsbit olunmuş və dövlət orqanları, bələdiyyələr, habelə qanunvericiliklə müəyyən edilmiş digər qurumlar və onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi, insan hüquqları pozuntularının qarşısının alınması üzrə

fəaliyyətini davam etdirmişdir.

Diqqətinizə çatdırmaq istərdim ki, 2024-cü ildə ombudsmanın ünvanına 29 min 371 müraciət daxil olmuşdur. Bu müraciətlərə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu ilə müəyyən olunmuş qaydada və müddətlərdə baxılmışdır. Ərizəçilərə həm qəbulda, həm də yazılı müraciətləri əsasında hüquqi məsləhətlər, habelə insan hüquq və azadlıqlarının müdafiəsinin forma və üsulları, o cümlədən bu və ya digər məsələlərlə əlaqədar aidiyyəti dövlət qurumlarına müraciət etmələri barədə tövsiyələr verilmişdir.

İnsanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədi ilə ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara müraciətlər edilmiş, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılması və pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlər görülmüş, təklif və tövsiyələr verilmişdir.

Əvvəlki illərdə olduğu kimi, sahibkarlıq subyektlərində işçilərin əmək hüquqlarının pozulması faktları üzrə araşdırmaların aparılmasında ciddi çətinliklər yaranmışdır. Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri əsas gətirilməklə bu qəbildən olan şikayətlərin araşdırılması, demək olar ki, mümkün olmamışdır. Odur ki, həmin qanuna əsasən, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısına sahibkarlıq subyektləri tərəfindən insan hüquq və azadlıqlarının, o cümlədən əmək hüquqlarının pozulması hallarında şikayətlərin araşdırılmasını birbaşa nəzərdə tutan dəyişikliklərin mümkün

qısa zamanda edilməsi zəruridir.

İşəgötürənlər tərəfindən işaxtaran şəxslərin əmək müqaviləsi bağlanılmadan işə cəlb edilməsi probleminə də diqqət artırılmalıdır.

Aztəminatlı ailələrin maddi yardım asılılığından azad edilməsində əhəmiyyətli rolu olan özünüməşğulluq proqramına əlçatanlığın asanlaşdırılması məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır. Xüsusi ilə də özünüməşğulluğa cəlb edilən şəxsin aktivlərlə təmin olunması ilə bağlı müddətin müəyyən edilməsi, habelə özünüməşğulluğa cəlb olunmuş şəxsin aktivlərlə təmin olunmasına qədər onun məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi üçün məhdudiyyətin aradan qaldırılması məqsədəmüvafiqdir.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi barədə müraciətlərlə əlaqədar ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması üçün qanunvericiliklə son müddətin və ya müddət aralığının müəyyən olunması aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynaya bilər.

Sağlamlığın qorunması hüququnun səmərəli təmin edilməsi istiqamətində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu sahədə müəyyən çətinliklər qalmaqdadır. İcbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsi, həmin zərfə daxil olan xidmətlər çərçivəsində ambulator müalicə alan şəxslərə yazılan dərman vasitələrinin sığorta hesabına qarşılanması məqsədi ilə zəruri tədbirlərin görülməsi, eyni zamanda, ölkəyə idxal edilən dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi sağlamlığın qorunması

hüququnun effektiv təmin olunmasında olduqca vacibdir.

Bundan başqa, onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsi, habelə onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə tədbirlər proqramının müasir tələblərə uyğun olaraq, yenidən işlənilməsi də məqsədəmüvafiqdir.

Səhiyyə müəssisələri tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədi ilə müvafiq göndərişlərin düzgün rəsmiləşdirilməsi və bununla da süründürməçilik hallarının aradan qaldırılması üçün tibb işçilərinin peşəkarlığının artırılması və onların lazımi qaydada təlimatlandırılması, mürəkkəb və detallı sənədləşmə prosesinin sadələşdirilməsi, habelə tibb müəssisələri ilə tibbi-sosial ekspert komissiyalarının fəaliyyətinin daha effektiv əlaqələndirilməsi zəruridir.

İnternet səhifələrində və sosial şəbəkələrdə yayımlanan çoxsaylı tibbi əsaslandırılmamış məlumatların, internet platformalar üzərindən satılan və keyfiyyəti şübhə doğuran dərman preparatlarının insan sağlamlığına göstərə biləcəyi neqativ təsirləri nəzərə alaraq, bu sahəyə nəzarətin gücləndirilməsi, davamlı monitorinqlərin aparılması və problemlərin qanunvericilik səviyyəsində həlli də vacib məsələlərdəndir.

Beynəlxalq hüquqi sənədlərdə və milli qanunvericilikdə təsbit olunmuş fundamental insan hüquqlarından biri kimi təhsil hüququ şəxsiyyətin, cəmiyyətin və dövlətin formalaşmasında və inkişafında həlledici rol oynayır. Təhsil sahəsində davamlı monitorinqlərin aparılması təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməklə yanaşı, tədrisin dövlət standartları əsasında təşkil olunmasına da əhəmiyyətli təsir göstərir.

Aparılan araşdırmaların nəticələri onu deməyə əsas verir ki, müəllim–şagird münasibətlərinin tənzimlənməsi və psixoloji yardımın səmərəli təşkili məqsədi ilə təhsil müəssisələrində psixoloqlara ayrılan ştat vahidinin şagird sayına uyğunlaşdırılması, psixoloqların müəllim və valideynlərlə əməkdaşlığının gücləndirilməsi, habelə psixoloqların bilik və bacarıqlarının artırılması məqsədəmüvafiqdir.

Təhsil müəssisələrində zorakılığa məruz qalmış uşaqlara zəruri dəstəyin göstərilməsi, onların yenidən qurbana çevrilməsinin qarşısının alınması üçün preventiv və dəstəkləyici mexanizmin tətbiqi olduqca vacibdir. Zorakılıq qurbanı olmuş uşaq üçün fərdi dəstək planı hazırlanmalı, uşağın psixoloji vəziyyəti və inkişafı qiymətləndirilərək müntəzəm olaraq nəzarətdə saxlanılmalıdır.

Həssas əhali qrupuna aid edilən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, onların cəmiyyətin tamhüquqlu üzvləri kimi inteqrasiyasının təmin edilməsi insan hüquqlarına hörmətin və sosial ədalət prinsiplərinə bağlılığın vacib göstəricilərindən biridir.

Tibb, təhsil, sosial xidmət və digər müəssisələrdə, həmçinin nəqliyyat sistemində və yollarda əlilliyi olan şəxslərin həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında hələ də çatışmazlıqlar qalmaqdadır. Xüsusi ilə də əlilliyi olan şəxslərin ictimai nəqliyyat infrastrukturuna əlçatanlığının təmin edilməsinə diqqətin artırılmasına, yerüstü və yeraltı keçidlərin, habelə metro stansiyalarının onların sərbəst hərəkəti üçün uyğunlaşdırılmasına və ya yenidən qurulmasına ehtiyac vardır. Yol infrastrukturunun təkmilləşdirilməsi və ya yenidən qurulması məqsədi ilə aparılan işlərdə əlilliyi olan şəxslərin

istifadə imkanlarının nəzərə alınması olduqca vacibdir.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, ombudsmanın rəsmi internet səhifəsində məlumatlara əlçatanlığın təmin edilməsi məqsədi ilə "Müyəssərlik menyusu" əlavə edilmiş, görmə məhdudiyyəti olan şəxslər üçün məlumatların əldə edilməsinin asanlaşdırılması təmin olunmuşdur.

Vətəndaşların layiqli həyat şəraitinin və sosial bərabərliyin təmin edilməsində mənzil hüququnun əhəmiyyətli rolu vardır. Ölkəmizdə bu hüququn təmin edilməsi məqsədi ilə həyata keçirilən tədbirlər sırasında əhali üçün maddi cəhətdən əlverişli olan yaşayış binalarının tikintisinə dəstək verilməsi xüsusi qeyd olunmalıdır. Bununla belə, mənzil hüququnun daha səmərəli təmin edilməsi məqsədi ilə güzəştli ipoteka kreditinin şərtlərinin yüngülləşdirilməsi, mənzil fondunun dövlət uçotu qaydasının təsdiq edilməsi prosesinin və çoxmənzilli binaların idarə edilməsi qaydasının müəyyən edilməsinin sürətləndirilməsi məqsədəmüvafiq hesab olunur.

Bir sıra şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatla əlaqədar üzləşdikləri problemlərin aradan qaldırılması və onların öz hüquqlarından yetərincə istifadə etmələrinə şərait yaradılması məqsədi ilə özbaşına tikililərin və yeni tikililərdə olan mənzillərin dövlət qeydiyyatına alınma prosesinin sürətləndirilməsi də zəruridir.

Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi diqqətdə saxlanılmış, şikayətlər üzrə müvafiq araşdırmalar aparılmışdır. Bir sıra hallarda ombudsmanın sorğuları əsasında həyata keçirilmiş xidməti araşdırmalar nəticəsində hüquq mühafizə orqanlarının bəzi əməkdaşlarının qanun pozuntularına yol verdiyi müəyyən edilərək barələrində

intizam tənbehi tədbirləri tətbiq olunmuşdur.

Pulsuz hüquqi yardımdan istifadə etmək hüququnun təmin olunmasında, vəkillərin qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə və ya təmsil etdikləri şəxslərlə görüşünün təşkil edilməsində mövcud problemlərlə əlaqədar ombudsmanın 916 çağrı mərkəzinə daxil olan müraciətlər operativ qaydada araşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Yeri gəlmişkən, yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli təmini məqsədi ilə cinayət mühakimə icraatı zamanı dövlət hesabına hüquqi yardımın göstərilməsi üçün qanunvericiliklə nəzərdə tutulan məbləğin artırılması məqsədəmüvafiq hesab olunur.

Həbs qətimkan tədbirlərinin seçilməsi və ya həbs müddətlərinin uzadılması ilə bağlı təqdimatların işin hallarından asılı olaraq minimuma endirilməsi, habelə penitensiar müəssisələrdəki sıxlıq probleminin aradan qaldırılması məqsədi ilə həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi cəza siyasətinin humanistləşdirilməsi prinsipinə uyğun olmaqla, prosessual hüquqların təmini baxımından olduqca əhəmiyyətlidir.

Hüquq və azadlıqların məhkəmə təminatı hüququ ilə bağlı şikayətlərə Konstitusiya qanunu ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində baxılmış, pozuntu halları müəyyən edildikdə onların bərpası istiqamətində zəruri tədbirlər görülmüş, ombudsmanın səlahiyyətlərinə aid olmayan şikayətlər üzrə qanunun tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

Ombudsmanın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığı Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, qanunveri-

ciliyin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınmasına və hüquqi müdafiə mexanizmlərinin effektivliyinin artırılmasına xidmət etmişdir.

Məhkəmə sistemində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məhkəmələrə çatım imkanlarını asanlaşdırmağa, onların fəaliyyətində keyfiyyətin və səmərəliliyin artırılmasına hədəflənmişdir. Bununla belə, ombudsmana ünvanlanan bəzi müraciətlərdə vətəndaşların texniki vasitələrə və internet resurslarına çıxış imkanlarının məhdud olması səbəbindən elektron məhkəmə informasiya sistemindən istifadə ilə bağlı çətinliklərlə üzləşdikləri öz əksini tapmışdır. Bəzən elektron sistemdə yaranmış nasazlıqlar məhkəmələrdə süründürməçilik hallarına da səbəb olmuşdur. Qeyd olunanlara əsasən vətəndaşların elektron məhkəmə sistemindən istifadəsinin seçim imkanı müəyyən edilməklə tətbiqi məqsədəmüvafiqdir.

Məhkəmə qərarlarının vaxtında və tam icra olunması ədalət mühakiməsinin səmərəliliyinin və məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi üzrə tədbirlərin davam etdirilməsi zəruridir.

Məhkəmə qərarlarının icrası ilə bağlı şikayətlər sırasında aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi barədə şikayətlər çoxluq təşkil etmişdir. Alimentin borclu tərəfindən müxtəlif səbəblərdən vaxtında ödənilməməsi və ya ödənişdən boyun qaçırılması, borclunun icra qurumlarından gizlənməsi məhkəmə qərarlarının icra edilməsinə ciddi maneələr törədir.

Mövcud boşluqlar nəzərə alınaraq, alimentlə bağlı məhkəmə qərarlarının icrası metodlarının təkmilləşdirilməsi, habelə ombudsmanın əvvəlki illik məruzələrində də irəli sürülən təkliflər nəzərə alınmaqla, alimentin ödənilməsinə vahid dövlət nəzarəti mexanizminin yaradılması günün tələbinə çevrilmişdir.

Bundan başqa, ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zamanı tərəflər və icra məmurları uşaqların mənafelərinin üstünlüyü prinsipini nəzərə almır ki, bu da onların psixoloji durumuna neqativ təsir göstərir. Qeyd olunanları nəzərə alaraq, həmin qərarların icrası metodları da təkmilləşdirilməli, icra prosesində psixoloqun iştirakı təmin olunmalı, bununla bağlı qanunvericiliyə zəruri dəyişikliklər edilməlidir.

Ombudsmanın milli preventiv mexanizm fəaliyyəti çərçivəsində saxlanılan şəxslərlə rəftar məsələləri, saxlanma şəraiti, habelə müvafiq sənədləşmənin araşdırılması məqsədi ilə aidiyyəti dövlət qurumlarının müəssisələrinə, ümumilikdə, 352 başçəkmə həyata keçirilmişdir ki, onlardan da 108-i plandan kənar olmuşdur. Başçəkmələr zamanı saxlanılan şəxslər konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müraciətləri araşdırılmış, bəzi məsələlər yerində həll olunmuş, zəruri hallarda aidiyyəti dövlət qurumlarına müraciətlər edilmiş, habelə əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır. Həmin müəssisələrdə ixtisaslı kadr, o cümlədən həkim çatışmazlığının olduğu, vakant ştatların komplektləşməsinə ehtiyacın yarandığı müəyyən olunmuşdur.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi təklif olunur.

Bundan başqa, penitensiar müəssisələrdə cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olmuş məhkumların cəzadan azad olunmalarına dair müraciət etmələri ilə bağlı mümkün məhdudiyyətlərin aradan qaldırılması və onların bu hüququnun effektiv həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsi, habelə cəzanı icra edən müəssisə və ya orqan tərəfindən məhkəmələrə müvafiq təqdimatların göndərilməsində olan problemlərin həlli zəruridir.

Qeyd etmək istərdim ki, ombudsman məhkumların və onların ailə üzvlərinin əfv haqqında müraciətlərini nəzərə alaraq, müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına vəsatətlər göndərmiş, həmin komissiyanın iclaslarında iştirak etmişdir. Ombudsmanın fəaliyyəti dövründə onun vəsatəti ilə, ümumilikdə, 879, 2024-cü ildə isə 15 məhkum əfv edilmişdir.

Hüquq mədəniyyətinin yüksəldilməsi məqsədi ilə ombudsman tərəfindən bütün ölkə ərazisində həyata keçirilmiş maarifləndirmə tədbirləri insan hüquq və azadlıqlarının təbliği və təşviqinə, habelə səmərəli müdafiəsinə xidmət etmişdir.

Məlum olduğu kimi, ombudsman COP29-un keçirilməsi ilə bağlı ölkə Prezidentinin müvafiq sərəncamına əsasən yaradılmış təşkilat komitəsinin üzvləri sırasında təmsil olunmuşdur. Bununla bağlı tədbirlər planında

nəzərdə tutulmuş hədəflərin həyata keçirilməsi məqsədi ilə ombudsman təsisatı tərəfindən bütün ölkə ərazisi üzrə silsilə tədbirlər təşkil olunmuşdur.

Qlobal iqlim problemlərinin insan hüquqlarının təmini baxımından yaratdığı çətinliklərlə bağlı müzakirələrin aparılması məqsədi ilə Ombudsmanların Beynəlxalq Bakı Forumu keçirilmiş, ölkə Prezidentinin forum iştirakçılarına müraciəti insan hüquq və azadlıqlarına ən yüksək səviyyədə verilən dəyərin bariz təzahürü kimi qarşılanmışdır. Bu müraciətdə səsləndirilən fikirlər, irəli sürülən tövsiyələr iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində milli insan hüquqları institutlarının gələcək fəaliyyət istiqamətlərinin müəyyən olunması baxımından əhəmiyyətli olmuşdur.

Azərbaycanlılara qarşı Ermənistanın uzun illərdir həyata keçirdiyi etnik təmizləmə və nifrət siyasəti nəticəsində yüz minlərcə insanın pozulmuş hüquqlarının bərpası beynəlxalq hüquq və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmət baxımından böyük önəm daşıyır. Müxtəlif vaxtlarda əzəli torpaqlarından zorla qovularaq qaçqın həyatı yaşamağa məcbur olmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində ombudsman tərəfindən geniş fəaliyyət həyata keçirilmiş, müvafiq beynəlxalq təşkilatlar qarşısında bu məsələ davamlı olaraq qaldırılmışdır.

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra Ermənistanın insan hüquqlarına ciddi təhdid yaradan mina terroru haqqında məlumat ombudsman tərəfindən il ərzində dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmış, bəzi beynəlxalq təşkilatların həmin çağırışlara laqeyd münasibəti ölkəmizə qarşı ikili

standartların açıq təzahürü kimi qiymətləndirilmişdir.

Beləliklə, illik məruzədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin təhlili əks etdirilməklə yanaşı, hüquq pozuntularının qarşısının alınması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyi, dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında səmərəli dialoqun və əməkdaşlığın dərinləşdirilməsi bir daha önə çəkilir. Ümid edirəm ki, illik məruzə insan hüquqlarının daha effektiv müdafiəsinə, dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq ruhunun gücləndirilməsinə təkan verməklə yanaşı, insan hüquq və azadlıqlarının təmin olunmasında sistemli və davamlı irəliləyişlərə, habelə hüquq mədəniyyətinin yüksəlməsinə öz töhfəsini verəcəkdir.

Çıxışımın sonunda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva başda olmaqla ölkəmizin bütün qadınlarını və xanım millət vəkillərini qarşıdan gələn Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir, ən ülvi arzularımı bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Səbinə xanım.

Hörmətli həmkarlar, illik məruzəyə profil komitədə – İnsan hüquqları komitəsində baxılmışdır. Mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun, komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Əvvəlcə icazə verin, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə hörmətli Mehriban xanım Əliyeva başda olmaqla Azərbaycan qadınlarını, hörmətli Sahibə

xanım Qafarova başda olmaqla parlamentin xanım üzvlərini, eləcə də İnsan hüquqları üzrə müvəkkil Səbinə xanım Əliyevanı ürəkdən təbrik edək, onlara dövləti və milli fəaliyyətlərində böyük uğurlar diləyək.

İlk növbədə, 30 illiyini qələbə ilə qeyd etdiyimiz Konstitusiyamıza uyğun olaraq, İnsan hüquqları üzrə müvəkkilin 2024-cü il üzrə məruzəsinin fərqli bir dövrü – təkcə torpaq bütövlüyü və suverenliyimizin deyil, həm də milli və vətəndaş tamlığının birinci ilini əhatə etdiyini xüsusi vurğulayaq.

Hər birimiz qürurla deyə bilərik ki, 30 illik işğala, soyqırımı və köçkünlüyə həsr olunan məruzələrdən də xilas olmuşuq. Xalqımızın qalibiyyət haqqı özünə qaytarılıb. Bəli, qələbəmiz universal hüquq və ali qanunçuluq hadisəsidir. Təkcə yüz minlərcə məcburi köçkünün deyil, hər bir azərbaycanlının konstitusion haqqı gerçəkləşib.

Müstəqillikdən 30 il sonra qazanılan milli Zəfər və Böyük Qayıdış Konstitusiyamızı bütövləşdirib, ali qanunumuzun tətbiq coğrafiyasını da genişləndirib.

Müxtəlif beynəlxalq casus şəbəkələrinin yüksək mükafatlar təqdim etdiyi şəxslərdən fərqli olaraq, azadlıq haqqında dünyəvi qanunları, bəşəri arzu və idealları gerçəkləşdirən, millətimiz üçün qalib yüz ili başladan Prezident İlham Əliyevin Nobel titulu daha insani, hüquqpərvər və adil qərar olardı.

İnsan hüquqları üzrə müvəkkil institutu Qarabağda qanunsuz yaradılan ombudsmanın paralel fəaliyyətindən də azad olub. İşğal səhifələri tarixə qovuşur və qayıdış hesabatları, azad torpaqlara həsr olunan məruzələr Milli Məclisə təqdim olunur.

Məruzəni qiymətləndirərkən, beynəlxalq təhlükələrin

görünməmiş dərəcədə artdığı bir dövrdə dünyada insan hüquqlarının durumuna qısa nəzər faydalı olardı. BMT-nin İnsan Hüquqları Şurasına üzvlükdən imtina edən Birləşmiş Ştatlarda Trampın son çıxışına əsaslansaq, cinayətkar kartellər daxildə savaş aparır, həbsxanalarda məhbusların sayına görə dünyada 1-ci yerdədirlər və hər ay yüz min qeyri-leqal miqrantın axını səbəbi ilə sərhəddə fövqəladə vəziyyət elan olunub. Fransada 2023-cü ildə 676 antisemitizm,188 islamofob aksiya keçirilib.

Ermənistanda insan haqlarına gəldikdə isə, erməni müvəkkil 2024-cü ildə hədə-qorxu, təzyiq, gender və etnik zəmində nifrət nitqi, çoxsaylı təhdidlərlə qarşılaşıb.

Azərbaycanın insan hüquqları üzrə müvəkkili konstitusion mandatı çərçivəsində fəaliyyəti zamanı hər hansı maneə və qanunsuz təsirlə üzləşməyib.

Milli Məclisə təqdim olunan 3 fəsil, 101 səhifə və yekun diaqramlardan ibarət məruzədə, ilk növbədə, vətəndaşların müraciətlərinə xüsusi yer ayrılıb. Xatırladaq ki, ötən il ombudsmanın ünvanına, burada qeyd olunduğu kimi, 29 min 371 müraciət daxil olub ki, əvvəlki illə müqayisədə fərq cəmi 40 müraciət təşkil edir. Əlbəttə, müraciətlərin daha aydın təsnifatına ehtiyac var. Belə ki, hansı hakimiyyət orqanlarından, yaxud yerli qurumlardan daha çox şikayətlərin olduğu, tələblərin xarakteri və əhatə etdiyi coğrafiyanın təhlili təkcə statistik deyil, gerçək problemlərin xəritəsini görməyə imkan verərdi.

Sənəddə mülki hüquqlarla bağlı, ilk növbədə, mənzil fondunun yenilənməsi ilə əlaqədar xüsusi ilə də Bakı şəhərində problemlərin hələ də qaldığı göstərilir. Hökumət bütün tərəflərlə birgə yeni çözüm yollarını tapmalıdır.

Məruzədə növbəti dəfə müvəkkilin beynəlxalq mandatı

çərçivəsində Yaxın Şərqdə döyüşən azərbaycanlıların yaxınlarının ölkəmizə qaytarılmasının diqqətdə saxlandığı vurğulanır. Rusiya–Ukrayna savaşında da hər iki tərəfdə vuruşan azərbaycanlıların taleyi eyni xarakterli məsələdir. Ümidvarıq ki, Suriyada hakimiyyət dəyişikliyi, dövlətimizin beynəlxalq nüfuzunun güclənməsi və nəhayət, Dəməşqdə səfirliyimizin açılması gələcəkdə vətəndaşlarımızın belə avantürist əməliyyatlarda iştirakına imkan verməyəcək.

Milli preventiv mexanizm çərçivəsində müvəkkil ötən il, ümumilikdə, müxtəlif qurumlara 352 başçəkmə həyata keçirib. Qeyd olunduğu kimi, onlardan böyük bir hissəsi planlaşdırılmamış başçəkmələrdir.

Məlumat üçün deyim, yenə də penitensiar müəssisələrdə sıxlıq problemi birinci olaraq vurğulanıb. Ölkəmizdə hər 100 min nəfərə 220–230-a qədər məhbus düşür. Onlardan 600-ə qədəri qadındır. Göstərici kriminogen durumun sabitliyindən xəbər verir və Avropa sıralamalarında biz müsbət mənada yüksək yerlərdən birini tuturuq.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi haqqında məruzədə əksini tapan bəzi statistik məlumatlar bizi narahat etməlidir. Penitensiar müəssisələrdə 2022-ci ildə vəfat edən 151 məhbusdan 146-sı, 2023-cü ildə isə 169 məhbusdan 163-ü xəstəliklər səbəbi ilə həyatını itirib. Göründüyü kimi, ağır xəstə məhkumların cəzadan azad olunmalarına dair məhdudiyyətlərin aradan qaldırılması, təqdimatların göndərilməsindəki problemlərin həlli zəruridir.

Azadlıqdan məhrumetmə deyil, məhdudlaşdırma tədbirlərinin – “cəza bilərziyi”nin tətbiqi mütərəqqi hadisədir. Probasiya Xidmətinin yaradılması təkcə büdcə vəsaitlərini qorumur, həm də şəxsin yaxınlarından və cəmiyyətdən

təcrid olunmadan islahına xidmət edir. Məlumat üçün deyək ki, hazırda şərti məhkum edilən 3 min 519 adama elektron nəzarət vasitəsi tətbiq olunub və xidmət öz fəaliyyət dairəsini, rəqəmsal monitorinqi, sosial adaptasiya və bərpa tədbirlərini gücləndirir. Probasiya haqqında yeni qanun qəbul edəriksə, cəza siyasətində alternativ qərarların dairəsini genişləndirmiş olarıq.

Sənəddə hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı göstərilir ki, çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsində nöqsanlar var. Ombudsmanın rəyi ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bildirir ki, bununla əlaqədar 74 nəfər həkim-mütəxəssis barəsində intizam tədbiri həyata keçiriblər.

Məruzədə narkoloq və klinik psixoloqların azlığı məsələsinə ayrıca yer verilib. Xatırladaq ki, ölkəmizdə 2015-ci ildə 28 min 555 nəfər narkotik istifadəçisi qeydiyyatda olubsa, 2021-ci ildə rəqəm 34 minə çatıb. Biz rəsmi rəqəmlərdən danışırıq. Dövlət Statistika Komitəsinin məlumatına görə 2016-cı ildə ölkədə narkoloqların sayı 91, ötən il 67, cari ildə isə 66 olub. Göründüyü kimi, bir narkoloqa 500 narkotik istifadəçisi düşür. Belə şəraitdə müalicənin effektivliyi mümkün deyil. Kadrların hazırlanması sahəsində sistemli tədbirlərə ehtiyac duyulur.

Məruzədə informasiyanın əldə olunması, o cümlədən dövlət – media münasibətlərinə geniş yer verilib. Burada xüsusi vurğulayaq ki, Azərbaycanda jurnalistlər media fəaliyyətinə görə deyil, kənardan qeyri-şəffaf maliyyələşmə, xarici dövlətlərin məxfi siyasi layihələrində təsir agentlərinə çevrildiklərinə görə məsuliyyət daşıyırlar. Məsələn, AbzasMedia layihəsi əsla KİV deyil, xəfiyyə və hibrid mübarizə platformasıdır.

“BBC”, “Amerikanın səsi”, “Россия сегодня” və digər media subyektləri, eləcə də UNDP və ya “Rus evi” kimi mədəni-humanitar çətir altında çalışan təşkilatlarla bağlı dövlətimizin seçdiyi prinsip beynəlxalq qanunlara və milli ləyaqət prinsiplərinə tamamilə uyğundur. Belə ki, ölkəmiz simmetrik münasibət tələb edir, əks halda məhdudlaşdırma tədbirlərinə qərar verilir. Yəni bizə göstərilən münasibəti biz də təkrarlayırıq.

“Human Rights Watch”, “Freedom House” və digər təşkilatlar son 4 ildə bir zəngilanlının, şuşalının azad torpaqlara qayıdışına, o cümlədən mina terroruna hesabat həsr etməyiblər. İnsan hüquqlarının selektiv tətbiqi özünü hüquq istismarçıları və qlobal prokurorlar kimi aparanların inhisarında olan sahəyə çevrilib. Artıq hüquq monopolistlərinin də hakimiyyəti iflasa uğrayır.

BMT-nin bir sıra qurumlarının yerli ofislərinin, həmçinin Qırmızı Xaç Cəmiyyətinin 1990-cı illərlə müqayisədə Vətən müharibəsində və ondan sonrakı fəaliyyəti nizamnamə tələblərinə uyğun olmayıb, anti-Azərbaycan planlarına xidmət edirdi. İtkin düşən şəxslərlə bağlı artıq yeni beynəlxalq qurum Bakıdadır və xaçsız humanist məqsədlərə xidmət edəcəkdir.

Məruzədə məhkəmələrdən şikayətlərin azalmadığı vurğulanır. Ombudsman sabiq prezident Levon Ter-Petrosyanın 30 il sonra yayılan bədnam çıxışına hüquqi qiymət verib. Təqdirəlayiq addımdır.

Qərbi Azərbaycana dinc qayıdışın hüquqi prinsipləri illik məruzəyə daxil olunub. Alqışlanacaq hadisədir. Təklif edirik ki, müvəkkil institutunun Qərbi Azərbaycan üzrə fəaliyyəti həm ayrı struktur vahidi, həm də hesabatlılıq baxımından müstəqil bir fəsildə verilsin.

Beynəlxalq əməkdaşlıq sahəsində müvəkkil xarici siyasətimizin mühüm mandata malik təmsilçisi kimi genişmiqyaslı işlər həyata keçirib.

Biz təklif edirik ki, xüsusi ilə də dövlət adamlarının xaricdən yayılan, idarə olunan terror mediası tərəfindən linç edilməsinə qarşı müvəkkilin Fransa, Almaniya, İsveçrə və digər ölkələrin müvafiq təsisatları ilə daimi işi həyata keçirilsin.

Yekunda. İrəli sürülən 81 təklif dövlət orqanlarının işinin təkmilləşdirilməsinə və daha effektli koordinasiyasına xidmət edir.

İnanırıq ki, millət vəkilləri müvəkkilin illik məruzəsini qənaətbəxş sayacaq və daha etibarlı tərəfdaşa çevrilməsi üçün ona köməklərini əsirgəməyəcəklər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, müzakirəyə başlayırıq. Çıxış üçün kim yazılmaq istəyirsə, buyursun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də təqdim olunan məruzəni dəstəkləyirəm. Hörmətli Səbinə xanıma çox ətraflı və geniş təqdimata görə təşəkkür edirəm. Təbii ki, məruzə kifayət qədər ətraflıdır və eyni zamanda, detal olaraq fərqli sektorlarda, istiqamətlərdə insan hüquqlarının qorunması ilə bağlı vəziyyətin qiymətləndirilməsinə, bu sahədə ombudsman institutunun rolunun gücləndirilməsinə xidmət edir. Bu baxımdan, təbii ki, sənədi dəstəkləyirəm və sənədə səs verəcəyəm.

Bütün bunlarla yanaşı, məruzə ilə bağlı bir sıra fikirlərimi bölüşmək istərdim. Əvvəla, məruzənin formatı,

eyni zamanda, məruzədə əks olunan məsələlərlə bağlı təklif etmək istərdim ki, növbəti il və ya növbəti illərdə məruzə hazırlanan zaman, bütövlükdə, istiqamətlər üzrə həm müraciətlər, həm də problemlər tematik və institusional olaraq qruplaşdırılsın. Yəni hər bir istiqamət üzrə hansı mövzuda daha çox müraciətlərin olması ayrıca olaraq qiymətləndirilsin. Çünki məruzədə müraciətlər, bütövlükdə, müraciətlərin bir qismi istiqamətlər üzrə təqdim olunur. Amma hansı istiqamət üzrə daha çox hansı mövzuda, hansı məsələlərlə bağlı müraciətlərin olması ayrıca qruplaşdırıla bilər. Eyni zamanda, hansı qurumlarla bağlı daha çox müraciətlərin olması da ayrıca təqdim olunarsa, yaxşı olar. Nəzərə alaq ki, Azərbaycan Mərkəzi Bankı tərəfindən oxşar praktika tətbiq olunur. Azərbaycan Mərkəzi Bankı mütəmadi olaraq banklar üzrə şikayətlərin qruplaşdırılmasını həyata keçirir. Bu baxımdan həm tematik, həm də institusional olaraq müraciətlərin qruplaşdırılması və məruzəyə daxil edilməsi məqsədəuyğun olardı.

Eyni zamanda, oxşar olaraq təkliflərin də istiqamətlər üzrə qruplaşdırılması daha məqsədəuyğun olardı. Məsələn, iqtisadi və sosial hüquqların qorunması ilə bağlı təkliflərin ayrıca bir kateqoriya olaraq təqdim olunması həm də təkliflərin izlənməsi və qiymətləndirilməsi baxımından məqsədəuyğun olardı.

Mən bir neçə təkliflə bağlı qısa olaraq fikirlərimi bölüşmək, eyni zamanda, digər təkliflərimi təqdim etmək istərdim. Məruzədə tamamilə doğru qeyd olunur, iqtisadi və sosial hüquqlarla bağlı məsələlərdən biri pensiya yaşına az qalmış işsiz şəxslərin məşğulluq məsələsidir. Nəzərə alsaq ki, həmin vətəndaşlarımızın işlə təminatında müəyyən çətinliklər var, çünki onların pensiya yaşına qısa

müddət qaldığı üçün xüsusən özəl sektor tərəfindən işə qəbulunda çətinliklər var. Amma eyni zamanda, mən təklif edərdim, həm də ombudsman institutu tərəfindən araşdırılması və bu istiqamətdə təkliflərin təqdim olunması məqsədəuyğun olardı.

Nəzərə alsaq ki, bir sıra ölkələrdə, o cümlədən dost Qazaxıstanda Əmək Məcəlləsinə əsasən, bütövlükdə, pensiya yaşına iki il qalmış vətəndaşların işəgötürən tərəfindən işdən azad edilməsinə imkan verilmir. Qazaxıstan Əmək Məcəlləsinə əsasən pensiya yaşına iki il qalmış vətəndaşlar, işçilər yalnız ştatlar ləğv olunduqda və ya attestasiyadan keçmədiyi halda işdən azad oluna bilərlər və işəgötürənin təşəbbüsü ilə həmin şəxslərin işdən azad olunması qanunla qadağandır. Oxşar praktikanın Azərbaycanda tətbiq edilməsi məqsədəuyğun olardı. Bu, xüsusən də pensiya yaşına az müddət qalmış vətəndaşlarımızn əmək hüquqlarının qorunması və sosial təminatı baxımından vacibdir.

Profilə uyğun olaraq, iqtisadi və sosial məsələlərlə bağlı tövsiyə ipoteka kreditlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Tamamilə doğru təklifdir. Nəzərə alaq ki, 2025-ci ildə dövlət büdcəsindən ipoteka kreditləşməsinə 100 milyon manat vəsait ayrılacaq və bu o deməkdir, 2025-ci ildə ipoteka kreditləşməsini istifadə edərək mənzil alan vətəndaşlarımızın sayı təxminən 5 minə yaxın olacaq. O baxımdan həm ipoteka fondunun nizamnamə kapitalı, həm də büdcədən bura ayrılan vəsaitlərin həcmini nəzərə alsaq, daha məqsədəuyğun olardı ki, güzəştli ipoteka kreditləri üzrə maksimum məbləğin 100 min manatdan 150 min manata çatdırılması da həyata keçirilsin. Bu da, təbii ki, xüsusən də əmlak bazarındakı qiymət dəyişikliklərinə uy-

ğun olaraq, ipoteka kreditləşməsinin daha səmərəli və daha təkmil şəkildə həyata keçirilməsinə gətirib çıxara bilər.

Son olaraq, təkliflərlə bağlı qısa olaraq bir-iki məqamı da qeyd etmək istərdim. Birincisi, təkliflərin aktuallığına görə qruplaşdırılması və məruzədə əks olunması məqsədəuyğun olardı. Çünki bəzi təkliflər, təbii ki, daha aktualdır və daha qısa zamanda qəbul olunması həyata keçirilə bilər. Ona görə də həm aktuallıq, həm də zaman baxımından qiymətləndirilməsi məqsədəuyğun olardı. Eləcə də əvvəlki illərdə təqdim olunan təkliflərin icra vəziyyətinin araşdırılması və bununla bağlı keyfiyyət meyarına da uyğun olaraq, məruzədə rəqəmlərin qeyd olunması məqsədəuyğun olar. Çünki institut tərəfindən mütəmadi olaraq təkliflər təqdim olunur. Əvvəlki illərdə təqdim olunan təkliflərin neçə faizinin qəbul edilməsi və ya müzakirə olunmasının ayrıca qeyd olunması məruzənin, təbii, keyfiyyət baxımından təkmilləşdirilməsinə xidmət edə biləcək faktorlardan biri ola bilər. Eləcə də təkliflərin bir qisminin maliyyə yükü kifayət qədər çoxdur. Ona görə təkliflər təqdim olunan zaman xüsusən fiskal gəlirlərimizin nəzərə alınması məqsədəuyğun olardı. Bu, təbii ki, təkliflərin qəbulu və icrası baxımından aktual məsələlərdən biridir.

Bütövlükdə, məruzəni dəstəkləyirəm və hörmətli həmkarlarımızdan məruzəyə səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Təklif var, 5 dəqiqəyə keçək. Razıdır hamı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. 5 dəqiqəyə keçirik. Xahiş edirəm, nəzərə alın.

Aydın Mirzəzadə. Aydın müəllim, buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm. İlk növbədə Azərbaycan xanımlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edirəm. Parlamentdə olan deputat xanımları təbrik edirəm, Ombudsman Aparatından gələn xanımları təbrik edirəm, bizim fəaliyyətimizi işıqlandıran, mətbuatda işləyən xanımları təbrik edirəm və bildirmək istəyirəm ki, ən yaxşı məzmunlu, dəqiq yazıları, bir qayda olaraq, xanım jurnalistlərimiz yazır. Bildirmək istəyirəm ki, biz Azərbaycan xanımları ilə fəxr edirik, onlar bütün işlərdə bizə nümunədirlər.

Hörmətli Sahibə xanım, bir neçə gündən sonra Sizin ad gününüzdür. Mən Sizi həm 8 Mart, həm də ad gününüz münasibəti ilə təbrik edirəm. Siz fəaliyyətinizə çox məsuliyyətlə yanaşırsınız və parlamentə uğurla rəhbərlik edirsiniz.

Hörmətli deputatlar, mən də ombudsmanın hesabatı ilə tanış oldum, eyni zamanda, çıxışını dinlədim. Birmənalı şəkildə demək olar ki, Azərbaycanda Ombudsman Aparatı dövlət–cəmiyyət münasibətlərində artıq öz möhkəm yerini tutub. 1995-ci ildə Konstitusiyamız qəbul ediləndə ombudsman institutu nəzərdə tutulmuşdu. Bir qədər sonra yarandı, faktiki olaraq sıfırdan yarandı, amma bütün bunlara baxmayaraq, ombudsman institutu vətəndaşların öz problemlərini həll etmək üçün döyəcəyi bir qapıya, bir ünvana çevrilə bildi. Bir il ərzində 29 mindən çox müraciətin olması onu göstərir ki, insanlar öz hüquqlarının olduğunun fərqindədirlər və eyni zamanda, bu hüquqların qorunması üçün növbəti bir təsisatın olduğunu görürlər. Çox yəqin ki, problemlərinin həllini görərək lazım gəldikdə ombudsmanın ünvanına da müraciət edirlər.

Qeyd edim ki, ombudsman institutu Azərbaycanın müstəqil dövlətçiliyinin çox ciddi faktorlarından biridir. Bu, Azərbaycanın demokratik, hüquqi dövlət olduğunu göstərir. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövləti modelini quranda insan hüquq və azadlıqları məsələsinə çox ciddi diqqət yetirdi və faktiki olaraq Konstitusiyamızın üçdə biri bu hüquq və azadlıqlara həsr olunub. Bu il Konstitusiyamızın 30 illiyi qeyd edilir. Cənab Prezidentimiz tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi onu göstərir ki, qanun hər şeydən üstündür. İnsan hüquqları dövlətimizin bir nömrəli vəzifəsi olaraq qalır.

Ombudsman institutunun fəaliyyətindən razıyam, müsbət qiymətləndirirəm, göstərdiyi bütün sahələr üzrə işlər görülüb və şəxsən Səbinə xanımın fəaliyyətinə də müsbət qiymət vermək istəyərdim. Döyüşlər zamanı biz güllə altında Səbinə xanımın yaşayış məntəqələrində olduğunu görürdük. Xankəndi Azərbaycan tərəfindən azad olunandan sonra ilk gedən Səbinə xanım oldu. Səbinə xanım üçün artıq insanların siyasi yönümü fərqli deyil. Biz vaxtaşırı onun və yaxud da onun aparat işçilərinin həbsdə olan və yaxud da saxlanılan insanların şəraiti ilə maraqlandıqlarını görürük. Bu günlər üzərində məhkəmə qurulan və faktiki olaraq ikinci Nürnberq prosesi gedən separatçılara, məhkəmə önündə ittiham edilənlərə də vaxtaşırı Ombudsman Aparatı tərəfindən baxılması, onların şəraitinin yoxlanılması da Azərbaycanın hüquqi bir dövlət olduğunu, insanların hüquq və azadlıqlarına ciddi diqqət etdiyini göstərir.

Mənim bir neçə sualım olacaq. Birincisi. Bildirildi ki, il ərzində 29 mindən çox müraciət olub. Mən burada kalkul-

yatorda hesabladım. Şənbə, bazar günlərini çıxandan sonra 1 iş gününə 114 müraciət daxil olub. Hörmətli Səbinə xanım, sizin işçiləriniz bu həcmi nə cür çatdırır? Bəlkə Ombudsman Aparatı işçilərinin sayının bir qədər artırılmasına ehtiyac olar? Çünki bir gün ərzində Ombudsman Aparatına 114 müraciət məktubunun daxil olması, onun işlənilməsi çox böyük enerji və bacarıq tələb edir.

İkinci sualım bundan ibarətdir ki, Azərbaycanda ombudsman təsisatına xarici vətəndaşlar müraciət edirmi? Uzun müddət burada çalışan və yaxud turist gəzintisi ilə bağlı, şübhəsiz ki, insanlar olur. Onlardan da müraciətlər olurmu?

Üçüncü sualım bundan ibarətdir. Hörmətli Səbinə xanım, həm Sizdən əvvəl çalışan və böyük zəhməti olmuş mərhum Elmira Süleymanovanın, həm də Sizin vaxtınızda, şübhəsiz, müəyyən istiqamətlər olur ki, həmin istiqamətlərdən şikayətlərin çox olduğunun fərqindəsiniz. Şübhəsiz ki, bu istiqamətlər üzrə Siz müvafiq icra strukturlarına və yaxud müvafiq dövlət orqanlarına müraciət edibsiniz. Həmin o...

**Sədrlik edən.** Bir dəqiqə verin, xahiş edirəm.

Axırıncı sualınızdır? Bitirdiniz, yoxsa yox, Aydın müəllim? Bitirdiniz. Lazım deyil onda. Çox sağ olun, sualınıza sonra qayıdarsınız, Aydın müəllim. Aydın müəllim, sonra sualınızı çatdırarsınız, yaxşı? İmtina etdiniz çıxış etməkdən.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, icazənizlə, əvvəlcə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə xanımlarımızı təbrik etmək istəyirəm. Azərbaycan tarixən qadının öz potensialını realizə edə bildiyi azsaylı coğrafiyalardandır. Xüsusən Ulu

Öndər Heydər Əliyevin hakimiyyəti illərində dövlət qadın siyasətində inqilabi mərhələ başlanmış, Prezident İlham Əliyev isə bu siyasi kursu ləyaqətlə davam etdirməklə yanaşı, Zəfərimizlə AXC–Müsavat iqtidarının hərbi girova, məcburi köçkünə, çadır zilləti yaşayan sakinə, məğlub əsgərin utanc yaşayan anasına çevirdiyi Azərbaycan qadınından qalib ölkənin məğrur xanımı obrazını formalaşdıra bilib. Eyni zamanda, bu gün Mehriban xanım Əliyevanın simasında həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzu tarixin heç bir dövründə olmadığı qədər yüksəklərə qalxıb.

Bu əziz gündə, başda Mehriban xanım Əliyeva olmaqla, ölkəmizdə hər bir qadını, o cümlədən hörmətli sədr, Siz başda olmaqla, parlamentimizin hər bir xanım fərdini, eyni zamanda, qonaqlarımız, Səbinə xanım özü başda olmaqla, ombudsman institutunun xanım əməkdaşlarını, ən əsası isə təmsil etdiyim Biləsuvarda şəhid anaları başda olmaqla, xanım seçicilərimizi təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

Gündəliyimizin məsələsinə gəlincə, hörmətli sədr, əziz həmkarlar, əvvəlcə ondan başlayaq ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi kifayət qədər peşəkar hazırlanıb və müvafiq qanunvericiliklə qarşıya qoyulan vəzifələri əhatələyir.

Eyni zamanda, ombudsmanın fəaliyyətində çevikliyin artmasını, proseslərə kifayət qədər adekvat reaksiya verən təsirli instituta çevrilməsini xüsusi qeyd etmək yerinə düşər. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi mina terrorunun nəticələrindən tutmuş COP çərçivəsində xüsusi panelə, o cümlədən AZAL-ın təyyarəsinin vurul-

masından sonrakı fəaliyyətdən separatçıların mühakiməsinə qədər məsələlərdə insan hüquqları üzrə müvəkkilin çevik davranışları təqdirəlayiqdir.

Hörmətli həmkarlar, müasir dövrdə insan haqları barədə danışmaq, bu istiqamətdə sağlam əsaslarda fəaliyyət qurmaq kifayət qədər mürəkkəb məsələyə çevrilib. İnsan haqlarının beynəlxalq müdafiəsi mexanizmləri faktiki olaraq ikili standartlar üzərində qurulub. Hamının qanun və məhkəmə qarşısında bərabərliyindən dəm vuranlar konkret əməlinə görə barəsində cinayət təqibi başlanmış ayrı-ayrı şəxslərin ətrafında istintaqı şouya çevirmək cəhdlərindən əl çəkmək istəmirlər.

Yaxud heç bir dəlil, sübut olmadan terrorçu elan etdiyi şəxsləri və toplumları sərhədlərindən min kilometrlərlə kənarda yerlə-yeksan edənlər Azərbaycandan terrorçuların azadlığını tələb edirlər.

Xocalı soyqırımına, məruz qaldığımız etnik təmizləməyə, 1 milyondan artıq insanın məhrumiyyətlərinə, təməl haqlardan xali olduğu situasiyaya göz yuman BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı əməlləri təkzibedilməz sübutlarla təsdiq olunan terrorçuların, separatçıların adını qlobal mediaya "qanunsuz saxlanılmış etnik ermənilər" şəklində servis edərək bu cinayətlərə ortaq olur.

Bu gün Azərbaycanda bəzi xarici ölkələrin səfirləri var ki, özlərini ombudsman kimi aparır. Kim xahiş edib onlardan bu yersiz xidməti göstərsinlər? Hər kəs, o cümlədən Azərbaycanda insan haqları barədə "narahatlıq" yaşayan o ölkələr, yaxşı olar ki, öz gözlərində tiri görsünlər.

İnsanların yaşadığı bölgələrdə nüvə sınağı keçirən, dənizaşırı ərazilərdə xalqlara minimum haqlar tanımayan Fransa kimi subyektlər, Avropa İttifaqının korrupsiya

yuvası olan təsisatları bizə insan adına, bəşəri dəyərlər adına heç nə öyrədə bilməz, heç nə də diktə edə bilməz.

İnsan hüquqlarının təməl prinsiplərindən biri, o cümlədən Konstitusiyada da əksini tapdığı kimi, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir. Amma bu gün ölkə daxilində haqdan, hüquqdan danışıb imperializmə kuklalıq edənlər birmənalı şəkildə bu prinsipi inkar edən davranış xətti tutublar.

Azərbaycanda məhkəmə hakimiyyəti üzərində köklü basqı formalaşdırmaq cəhdləri səngimir. Polisdən düşmən obrazı formalaşdırmaq üçün planlı təbliğat qurulub. Təbii ki, Azərbaycan xalqı müdrikdir və bu kimi cəhdləri rədd edir. O cümlədən Azərbaycan dövləti daxili sabitliyin, hüquq məkanının sarsıdılmasına, 1990-cı illərin hüquqsuzluq dövrünün bərpa olunmasına çalışanlara, bu davranışlara qətiyyən imkan verməyəcək qədər qüdrətlidir. Lakin istənilən halda cəmiyyətimiz bu reallıqların da fərqinə varmalıdır.

Bütün bunların fonunda birmənalı şəkildə deyə bilərik ki, ombudsman fəaliyyətini kifayət qədər mürəkkəb bir kontekstdə də olsa, uğurla davam edir. Cari məruzə də bu reallığın inikası olduğu üçün dəstəklənməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Babalarımızın bizə əmanət qoyduğu ən böyük dəyər Azərbaycanın dünyəvi dövlət olmasıdır. Məhz dünyəvi dövlət olması həm də qadın azadlığı deyilən bir

məfhumu bizlərə əmanət qoyub. Geridə qalmış Şərq toplumlarının heç birində qadınların azadlığı, qadınların hüquq günü bu qədər geniş şəkildə qeyd olunmur. Ona görə də bu gün münasibəti ilə mən şəhid ailələri başda olmaqla bütün ləyaqətli Azərbaycan xanımlarının hamısını təbrik edirəm. Onların azadlıqlarının daha da genişlənməsini, ictimai-siyasi həyatda daha fəal rol almasını təmənna edirəm.

Ötən gün biz siyasi partiya təmsilçiləri olaraq Xocalı, Ballıca, Xankəndi məntəqələrini Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşəbbüsü ilə ziyarət etdik. Orada olan böyük quruculuq işlərinə, insanların, həqiqətən də, nə qədər böyük fədakarlıq göstərdiyinə və ölkə Prezidentinin də sistemli şəkildə bu bölgənin dirilişini təmin etdiyinə hamımız bir daha şahidlik etməli olduq. Orada sevindirici o idi ki, bu gün Xocalıda məktəbdə təhsil alan uşaqları, müəllimləri görəndə və meydançada futbol oynayan uşaqların sevincini görəndə tarixin bizim üçün nə qədər geri dönüş etdiyinin həzzini ala bildik. Bu, olduqca sevindiricidir. Orada məcburi köçkünlərin də böyük əksəriyyətinin hazırlaşdığı, müəyyən bir qisminin də köçürüldüyü və yaşam şərtlərini qurduğunu gördük. Bunlar hamısı ürək açan mənzərələrdir, ürək açan faktlardır.

Eyni zamanda, mən hesab edirəm ki, ombudsmanın bu məruzəsi də kifayət qədər səviyyəli, əhatəli hazırlanmış bir məruzədir. Məruzədə də məhz məcburi köçkünlərin, qaçqınların problemlərinin azalmasını, bu istiqamətdə səhifələrin də az olduğunu görəndə sevinirsən ki, artıq bu problem gündəmdən çıxmağa başlamaqdadır. Amma eyni zamanda, mən istərdim ki, hörmətli ombudsmanımız həm

də məcburi köçkünlər ora qayıdandan sonra illərdir mülkiyyət sahibi olan insanların mülkiyyətində olan yerlərin onlara qaytarılmasının asanlaşması məsələsinə də baxsın. Elə sahibkarlar var ki, onların müəssisələri illərdir məcburi köçkünlərə barınacaq olaraq verilib, onlar heç vaxt səslərini çıxarmayıblar. Amma bundan sonra daha rahat şəkildə bunu təmin etmək vacibdir.

Hörmətli ombudsmanımız bu məruzədə çox önəmli bir məsələyə toxunub. Bu, təhsillə bağlıdır. Ucar rayonundan bir misal gətirib, demək, birinci sinifdə şagird sayı düzəlmədiyinə, on nəfərdən az olduğuna görə ikinci sinif də birləşdirilib, yarı birinci, yarı ikinci sinif proqramı ilə dərs keçilməsinə etirazını ortaya qoyub. Bu, tamamilə məntiqlidir. Sabah ikinci sinif də olmasa, demək, onda birinci sinfi üçüncü sinifləmi birləşdirmək lazımdır? Düzdür, Nazirlər Kabinetinin bu istiqamətdə qərarı var. Amma bu qərara baxılmalıdır. Birinci sinifdə bir nəfər şagird olsa da, ona ayrıca müəllim dərs deməlidir. Bu proqramları dəyişmək olmaz. Çünki ölkə həyatında təhsildən önəmli vacib məsələ olmamalıdır.

Digər vacib məsələlərdən biri ombudsman tərəfindən bu sənəddə çox sayda qanunvericilik təşəbbüsü olaraq məsələlər qaldırılıbdır. Burada həm də qeyd olunur ki, ombudsmana belə bir təşəbbüs hüququnun verilməsi faydalı olardı. Mən də bu ideyanı dəstəkləyirəm. Baxın, bizdə Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə qəbul olunub, ombudsman institutu ondan sonrakı dövrdə yaranıb. Bəlkə də o dövrdə olsa idi, ombudsmana da bu səlahiyyətləri vermək olardı. Gələcəkdə hər hansı bir şəkildə, bir il, beş il sonra Konstitusiya ilə bağlı hansı isə dəyişikliklər nəzərdə tutulanda, mən hesab edirəm ki,

bu ideyanı dəstəkləməyimiz vacibdir. Çünki burada çox sayda qanunvericilik təşəbbüsü məhz ombudsmandan gəlir. Biz bunu yadırğamamalıyıq. Çünki cəmiyyətlə birbaşa təması olan, oradan impulslar alan, şikayətləri dinləyən bu institutdur. Bu institutun da mötəbərliyini qaldırmaq üçün bu ideyanı dəstəkləmək vacibdir. Diqqətinizə görə təşəkkür edirəm, layihəni dəstəkləyirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hamınızı salamlayıram. Azərbaycan qadını Tomrisin timsalında dünyanın ilk hökmdar qadınıdır. Azərbaycan qadınları amazonların timsalında dünyanın ilk savaşçı qadınlarıdır. Sara xatunun timsalında dünyanın ilk diplomat qadınıdır. Bu ənənə bu gün də davam etməkdədir. Azərbaycanın Birinci vitse-prezidenti Azərbaycan qadınlarının ən gözəl təmsilçisidir. Azərbaycanda parlament sədri xanımdır. Azərbaycanda xanımlar təhsil işçiləridir, iş adamlarıdır, müəllimlərdir, analardır, bacılardır, şəhid anaları, şəhid ailələridirlər. Bu, şərəfli Azərbaycan qadınının adının nə qədər uca olduğunu göstərir.

Ən nəhayət, Azərbaycanda İnsan hüquqları üzrə müvəkkil qadındır və bu gün çox maraqlı bir təqdimat etdi, məruzə etdi.

Məruzəyə iki cür yanaşa bilərik.

1. Statistik. Yəni rəqəmlər səsləndirildi, Azərbaycanda insan hüquqlarının vəziyyəti bizə məlum oldu. Bəlli oldu ki, doğrudan da, Azərbaycanda insan hüquqlarının qorunması, sadəcə, bu mövzunu istismar edən və ona qeyri-obyektiv yanaşan “insan hüquqları təşkilatları”nın prizmasından baxanda obyektiv görünmür. Bizim obyektiv insan

hüquqları münasibətlərimiz, insan hüquqları məsələlərində olan problemlərimiz məhz bu məruzədə də öz əksini tapıbdır. Bu, məsələnin bir tərəfi. Bu, çox vacibdir. Nəticə etibarı ilə biz Azərbaycan Konstitusiyasına görə demokratik cəmiyyətdə yaşadığımız üçün insan hüquqları ilə bağlı məsələlərdən narahat oluruq, təqdir edirik və yaxud tənqid edirik. Ona görə də mən düşünürəm ki, məsələyə bir qədər analitik baxmaq lazımdır.

Təqdim olunan məruzə hüquqi indikatorlarla və qiymətləndirmə indikatorları ilə çox zəngindir. Problemlər sadalanır, müraciətlər sadalanır və kateqoriyalaşdırılır, hansı sahədə nə qədər problem var. Mənə elə gəlir, biz o vaxt bu məruzənin əsl mahiyyətinə uyğun hərəkət etmiş olacağıq ki, sahələr üzrə insan hüquqları ilə bağlı olan problemlərlə məşğul olmalı olan dövlət qurumları bu məruzədən nəticə çıxarsınlar. Nəyə görə? Məsələn, filan sahə üzrə daha çox problemlər var. Əmək hüquqlarının pozulmasına görə daha çox müraciətlər var. İşəgötürmə ilə bağlı məsələlərdə daha çox hüquqi pozuntular var. Ondan sonra, ictimai hüquq münasibətlərimizin digər sektorunda, hansı sahədə daha çox problemlər var, bu, təhlil olunmalıdır. İnsan hüquqları üzrə müvəkkilin məruzəsində, tutaq ki, bizim müvafiq qurumlar filan sahə üzrə hüquq pozuntuları daha az olsun sualının cavabını tapmalıdır.

Ona görə mən bir daha təşəkkür edirəm ki, çox hörmətli Səbinə xanım bu cür məzmunlu və tutumlu bir məruzə təqdim etdi. Əks-təqdirdə, uyğun təşkilatlar, uyğun idarəetmə strukturları bununla bağlı ölçü götürməsələr, bunu, sadəcə, statistik material kimi arxivin bir kənarına qoysaq, hər il belə məruzələr olacaqdır. Yenə Aydın müəllimin də təəccüb etdiyi kimi, doğrudan da, müraciət-

lərin sayı daha da artacaqdır. Ona görə çalışmaq lazımdır ki, bu saylar azalsın.

İkinci bir məsələ, bu gün insan hüquqları ilə bağlı yeni bir prioritet yaranıbdır. Bu, həmişə mövcud olubdur. Amma indiki mərhələdə çox aktualdır. Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmaq hüququ məsələsi. Mən Səbinə xanıma çox təşəkkür edirəm, bu məsələni daim diqqət mərkəzində saxlayır, bütün platformalarda qayıdış hüququndan və Qərbi azərbaycanlıların hüquqlarının pozulmasından danışır. Hətta Avropa təşkilatlarından gələn bəzi hüquq müdafiəçiləri icmaya gəlməsələr belə, biz İnsan hüquqları üzrə müvəkkilin, ombudsmanın aparatında görüşüb öz hüquqlarımızla bağlı məsələləri onların diqqətinə belə çatdıra bilirik. Mən düşünürəm ki, bu istiqamətdə çox hörmətli ombudsmanımıza uğurlar arzulayaq və bayaq dediyim kimi, çalışaq, qurumlar nəticə çıxarsınlar ki, get-gedə həm ombudsmanın işi azalsın, – doğrudan da, çox böyük tutumlu bir iş görüblər, – həm də insan hüquqları ilə bağlı vəziyyət düzəlsin. Mənə elə gəlir ki, bu məruzənin də mahiyyəti elə, əslində, ondan ibarətdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar! Mən də böyük Mirzə Cəlilin "Millətin gələcəyi onların əlindədir" dediyi qadınları, o sıradan Birinci vitse-prezidentimiz hörmətli Mehriban xanımı, xanım sədr, Sizi, Səbinə xanımı, zərif cinsin bu salondakı bütün təmsilçilərini ürəkdən təbrik edirəm!

Məruzəyə gəldikdə, giriş hissəsində də vurğulandığı kimi, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə

müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun hazırlanıb, özünün hərtərəfliliyi, prinsipiallığı ilə diqqət çəkir. Çeşidli hüquqların təmini ilə bağlı burada sadalanan yüzlərcə faktın arxasında böyük zəhmət və məsuliyyət hissinin durduğunu görməmək mümkün deyil. Ombudsman institutunun Suriyada girovluqda saxlanılan azərbaycanlılardan tutmuş qapalı müəssisə və təcridxanalardakılara qədər bütün təbəqələrin təmsilçilərinin problemləri ilə maraqlanması, çatışmazlıqları açıq şəkildə təsbit etməsi, eyni zamanda, vəziyyətdən çıxış yolları da göstərməsini yüksək qiymətləndirirəm. Mən də bu fikirdəyəm, həbsxanalarda, özəlliklə də təcridxanalardakı sıxlığa, təkcə Lənkəranda olduğu kimi, çağdaş penitensiar kompleksin istifadəyə verilməsi yolu ilə deyil, həm də cəza siyasətinin humanistləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması fəlsəfəsindən daha tez-tez çıxış etməklə son qoymaq olar ki, bu da orada saxlanılanların sayının, onlara ayrılan xərclərin də azaldılması ilə nəticələnərdi. Bu yolla qənaət edilən vəsait isə, – məruzədə sözügedən müəssisələrdə saxlanılanların müayinə və müalicə ilə vaxtında təminlərində problemlərin olduğuna, oradakı tibb məntəqələrində avadanlıq, dərman çatışmazlığına toxunulur, – onların aradan qaldırılmasına sərf edilə bilər.

Ötən ildəki çıxışımda ombudsmanın Qərbi Azərbaycandan olanların pozulmuş haqlarının beynəlxalq müstəvidə qaldırılması zərurətinə toxunmuşdum. Bizim insan hüquqları təsisatının Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə Ermənistanla bağlı alternativ hesabat təqdim etməsini, orada, eləcə də ATƏT-in "İnsan ölçüsü" üzrə konfransının "Tolerantlıq

və ayrı-seçkilik" mövzusundakı plenar sessiyasında azərbaycanlılara qarşı aparılan etnik təmizləmələrin, onların öz doğma yurdlarına qayıtmaq haqlarının qabardılmasını, İslam Əməkdaşlığı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının 2024-cü ildəki rəsmi sənədində sözügedən reallığın öz əksini tapmasını Qərbi Azərbaycana qayıdışın hüquqi bazasının zənginləşdirilməsi yönündə atılmış addımlar kimi dəyərləndirirəm. Bir sözlə, bu məruzə göstərir ki, əgər söhbət azərbaycanlıların pozulmuş haqlarının təminindən gedirsə, biz burada da ancaq özümüzə, bu məsələlərdən sorumlu qurumlarımıza güvənməliyik.

Düzdür, insan haqları məsələsi universal prinsip sayılır və bu, beynəlxalq hüquqda belə də təsbit olunub. Ancaq biz müstəqillik qazanandan üzü bəri guya bunun keşiyində duran beynəlxalq qurumların, özünü azad dünyanın liderləri kimi təqdim edənlərin qaçqınlıq və köçkünlüklə üzləşən yüz minlərcə azərbaycanlının pozulan haqlarına necə biganə yanaşdıqlarını, nə cür ayrı-seçkiliyə yol verdiklərini azmı gördük? BMT-nin İnsan hüquqları üzrə Ali komissarı Volker Türkün "anşluss"un və nasizmin nə olduğunu, "miautsum"çuların kimin yolu ilə getdiklərini yaxşı bilən bu avstriyalı hüquqşünasın həmin o yüz minlərin evlərini yağmalatdıran, yurdlarını dağıtdıran, terrorçuluqda, soyqırımında, başqa hərbi cinayətlər törətməkdə ittiham olunanların azadlığa buraxılmaları çağırışı göstərir ki, səlibçi zehniyyətinə dayanan bu siyasət hələ də davam etməkdədir. Azərbaycan qanunlarına tabe olmaq istəmədiklərindən Qarabağdan çıxıb gedənlərin hər hansı şərt irəli sürmədən geriyə dönmələrini təmin etməyə çağıranlar etnik təmizləmə ilə üzləşən yüz minlərcə azərbaycanlının indi Ermənistan adlandırılan yerə, öz doğma

yurdlarına dönmək haqlarını nədən tanımaq istəmirlər? Bizi öz sivilizasiyalarından saymadıqları üçünmü?

Ona görə də mən tam məsuliyyətlə bildirirəm ki, əgər insan haqlarının təminindən söhbət gedirsə, buna son dörd ildə heç bir dövlət Azərbaycan qədər töhfə verməyib. Beynəlxalq müstəvidə "insan haqları" deyib bağıranların qaldırdıqları səs-küy isə, sadəcə, bəlli məqsədlərə xidmət edən şoudur. Onları sənin haqlı olub-olmamağın deyil, sövdələşmə, əlindəki kartın maraqlandırır.

Plasdarma çevirdikləri ölkənin liderini ayaq üstə qarşılayanlar onun öz milli maraqlarından çıxış etməyə çalışdığını görəndə ayaq altda salıb tapdalayırlar. Açıq şəkildə bildirirlər ki, onları torpağın üstündəkilərin, bir zaman meydanlara töküb kökə payladıqlarının...

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli ombudsman. Bu gün müzakirəyə təqdim edilmiş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü il üzrə məruzəsini yüksək qiymətləndirirəm. Geniş təhlil əsasında, qanunvericiliyin tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasında necə təmin olunduğunu biz bu məruzədən də görürük.

Gəldiyim nəticə də elə bundan ibarətdir ki, Azərbaycan Respublikasında bütün insan hüquq və azadlıqları ən yüksək səviyyədə təmin edilir və qorunur. Eyni zamanda, qeyd etməliyəm ki, Ermənistanın Azərbaycan torpaqlarını işğalının, azərbaycanlılara qarşı dəhşətli soyqırımı və etnik təmizləməsi nəticəsində yüz minlərcə azərbaycan-

lının pozulmuş hüquqlarını da məhz Azərbaycan dövləti, müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev təmin etmişdir.

Bu gün də bu təminat ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu gün Azərbaycanda insan haqlarının təminatı və qorunması bir çox inkişaf etmiş ölkələrin elə özünə bir nümunədir və onlar bundan çox örnək götürə bilərlər. Azərbaycanda multikulturalizm də təkcə bir dövlət siyasəti deyil, bu bizim həyat tərzimizdir və Azərbaycanda bütün xalqlar mehriban, qarşılıqlı hörmət əsasında və bütün hüquqları təmin edilməklə yaşayırlar. Amma digər ölkələrdə biz, çox təəssüf ki, bunu görmürük. Eyni zamanda, ayrı-seçkilik, müəyyən ikili standartlar, qeyri-obyektiv qiymətləndirmələr ayrı-ayrı dövlətlərin fəaliyyətinə ciddi təzyiqlərlə nəticələnir.

Bu gün biz ombudsmanın illik məruzəsini nəzərdən keçirərkən görürük ki, hətta ayrı-ayrı sahələr üzrə bu məruzədə qorunmuş, təmin edilmiş hüquqların genişləndirilməsi ilə bağlı tövsiyələr var. Bu, bir daha onu göstərir ki, Azərbaycanda uğurla həyata keçirilən hüquq islahatları, sosial-iqtisadi islahatlar hər bir vətəndaşın hüquqlarının tam təmin edilməsinə geniş imkanlar yaradır. Eyni zamanda, əlbəttə, həyat yerində dayanmır. Azərbaycanda sürətli iqtisadi inkişaf keyfiyyətcə yeni mərhələdə, yeni səviyyədə həyatı təmin edir ki, bu da yeni hüquqların zərurətini ortaya qoyur. Bu baxımdan da, hesab edirəm ki, ombudsmanın məruzəsində irəli sürülən tövsiyələr və təkliflər birmənalı olaraq Azərbaycan vətəndaşlarının hüquqlarının etibarlı qorunmasına bir daha dəlalət edir.

Çıxışımın sonunda fədakar, zəhmətkeş, ən yüksək intellektə malik Azərbaycan qadınlarını qarşıdan gələn 8

Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edirəm, onlara öz fəaliyyətlərində uğurlar və möhkəm can sağlığı arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Bəxtiyar müəllim.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Xanım sədr, 8 Mart bayramı münasibəti ilə Sizi, Səbinə xanımı, xanım həmkarlarımı, xanım jurnalistləri və bütün Azərbaycan qadınlarını təbrik edirəm.

Səbinə xanımın məruzəsini yüksək qiymətləndirir və etdiyi təkliflərin də həyata keçirilməsi zərurətini əlaqədar orqanların vacib işi hesab edirəm. Hesabatda səslənən təkliflər həyata keçirilərsə, ölkədə şikayətlərin sayı bəlkə də 50 faiz azalmış olardı. Diqqətimi çəkən məqam odur ki, səslənən təkliflərin əksəriyyəti ildən-ilə təkrarlanır və bu, üzücüdür. Ombudsmanın təkliflərinə ciddi yanaşılmalı və hər il ən azından bir neçəsi həllini tapmalıdır.

Ombudsman Aparatına 29 min şikayət daxil olub. İnanın ki, bu, edilməli olan şikayətlərin az bir hissəsidir. Bir çoxu məktub yaza bilmir, bir qisim vətəndaş necə müraciət edəcəyini bilmir, digər qismin vəkil tanışı, məktub yaza biləni yoxdur. Bu o deməkdir ki, vətəndaşlara hüquqi sahədə əlçatan xidmətin göstərilməsi böyük zərurətdir. Bu vacibiyyəti nəzərə alaraq, etdiyim təklifi burada bir daha səsləndirmək istəyirəm. Vətəndaşlara ölkə boyu pulsuz, hüquqi xidmətin göstərilməsi vacibdən də vacibdir. Ombudsman institutu bu vəzifəni yerinə yetirə bilər və elə vətəndaşların da ən çox inandığı, etibar etdiyi, özünə yaxın bildiyi qurumlardan biri ombudsman institutudur. Bunu nəzərə alaraq, ombudsman institutuna bu missiyanı həyata keçirmək üçün lazımi maliyyə və

digər institutların ayrılmasını təklif edirəm. Hər bir rayon və şəhərdə bir neçə nəfər hüquqşünasın işə götürülməsini təmin edəcək dərəcədə maliyyə vəsaitinin ayrılması vətəndaş məmnuniyyətinin təmin edilməsinə yardımçı olardı. Bu missiyanı ombudsman institutu ictimai birliklərlə bərabər də həyata keçirə bilər. Nəzarət isə mütləq şəkildə ombudsman institutunda olmalıdır.

Bir daha demək istəyirəm ki, burada səslənən təkliflərə aidiyyəti üzrə dövlət orqanlarının rəsmi nümayəndələrinin cavab verməsi vacibdir. Əgər bu təklif və suallar bəzən cavablandırılmırsa, o zaman çıxış etməyin də lüzumu qalmır. Parlament tribunasından səslənən fikirlərə aidiyyəti dövlət qurumlarının rəsmi cavab verməsi mütləq şəkildə həyata keçirilməlidir. Vermirlərsə, müzakirələr zamanı ünvanlarına səslənən tənqidlərə də dözümlü və gərək hazır olsunlar. Digər tərəfdən, bəlkə bizim dediklərimiz məlumatsız olmağımızdan irəli gəlir. Verilən cavablar qənaətbəxş olarsa, məsələ də bağlanmış olar və biz də bu məsələyə bir daha qayıtmarıq.

Qanunsuz tikililərlə və vətəndaşların tikinti sahəsində üzləşdiyi problemlərlə bağlı hesabatda məlumatlar və təkliflər yer alıb. Yerlərdə tikintilərə icazə ilə bağlı ciddi problemlər var. İcra hakimiyyətləri bu sahədə səlahiyyətsiz bir quruma çevrilib. Bunu doğru saymıram. Bizlər də ciddi problemlərlə üzləşir və hər bir kiçik məsələnin həlli üçün mərkəzi icra orqanlarına üz tutmalı oluruq. Bu qədər mərkəzləşmə yerlərdə inkişafa ciddi əngəl yaradır. Kim isə kənddə malına tövlə tikirsə, aldığı 5-10 hektarlıq sahədə iş görmək üçün müvəqqəti nə isə, el dilində desək, qaraldırsa, niyə icazəni Bakıdan almalıdır? Məgər bir nəfər həyətinə hasar çəkirsə, evinə artırma edirsə, balaca

bir köşk tikirsə, hətta sanitar qovşaq tikirsə belə, icazəni Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən alması absurd deyilmi? Bu, məntiqə söykənməyən yanaşmadır, vətəndaşlar arasında ciddi narazılıq yaradır. Bu məsələdə mütləq şəkildə asanlaşdırmaya, yüngülləşdirməyə ehtiyac var. Rayonların inkişafını istəyiriksə, onların mərkəzdən asılılığı ciddi şəkildə azalmalıdır. Ombudsmanın da təkliflərində bu məsələlər ciddi şəkildə öz təsdiqini tapmışdır. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Əli Məsimli. Buyurun, Əli müəllim.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hər şeydən əvvəl, mən də təbriklərə qoşulur, Sizi və bütün xanımları qarşıdan gələn bayram münasibəti ilə ürəkdən təbrik edir, möhkəm can sağlığı, həyat və fəaliyyətinizin bütün istiqamətlərində davamlı uğurlar arzulayıram.

Təqdim olunan məruzə çox ciddi və geniş faktoloji materiallara əsaslanır. Kifayət qədər peşəkarcasına hazırlanan bir sənəddir. Eyni zamanda, Səbinə xanımın təqdimatı da kifayət qədər yüksək səviyyədə oldu. Bu iki faktor belə bir fikir söyləməyə əsas verir ki, bu sənəd yüksək səviyyədə hazırlanıb və müsbət qiymətləndirilməyə layiqdir. Sənəddə vacib hesab etdiyim məqamlar çoxdur. Onların arasında şəhid ailələri, müharibə iştirakçıları, müharibə veteranlarına daha çox yer ayrılması, daha doğrusu, əvvəlki məruzələrdə olduğu kimi, bu dəfə də daha çox yer ayrılmasını çox yüksək qiymətləndirirəm. Eyni zamanda, bu istiqamətdə bir sıra gözləntiləri də qeyd etmək istəyərdim ki, şəhid ailələrinə indiyə qədər harada isə 15 mindən çox mənzil və fərdi ev tikilib, təhvil verilib və bu, kifayət

qədər böyük göstəricidir. Onun harada isə 6 minə qədəri 44 günlük Vətən müharibəsindən sonrakı dövrə düşür. Bu da çox böyük rəqəmdir. Hörmətli sədr, siyahıda qalan insanları da sevindirmək, onların da məmnunluğunu təmin etmək üçün bu və ya növbəti illərdə bu siyahının qapanması və bütün siyahıda olanların hamısının mənzillə təmin edilməsinə Azərbaycanda imkan, potensial var. Bunun reallaşdırılmasını çox vacib hesab edirik.

Eyni zamanda, bu istiqamətdə deputatlara olan müraciətlər, o cümlədən bizə olan müraciətlə bağlı bir məsələni də qeyd etmək istəyərdim. "Hərbi qulluqçuların statusu haqqında" Qanuna və digər sənədlərə görə 20 il xidmətdən sonra Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlarda xidmət keçən insanlar dövlət hesabına mənzillə təmin olunurlar. Amma bu hüquq indi yalnız orduda xidmət keçənlərə aid edilir. Hesab edirik ki, müvafiq qanunvericiliyə uyğun olaraq, həmin insanlar da silahlı qüvvələrin tərkib hissəsi hesab olunduğundan, bu kateqoriyaya aid hərbçilərin də mənzillə təmin olunmaq hüququnun reallaşdırılması istiqamətində addımların atılması çox vacibdir və buna da diqqət yetirilsin.

Eyni zamanda, məruzənin sonunda ombudsmanın 81 çox vacib təklifi öz əksini tapıb ki, onların reallaşdırılması aidiyyəti sahələr üzrə hüquqların təmin olunmasında mühüm rol oynayar. Hörmətli sədr, yaxşı haldır ki, həmin təkliflərin içərisində biz deputatların irəli sürdüyü təkliflər də öz əksini tapıb. Ünvanlı sosial yardım təyin edərkən istismara yararsız nəqliyyat vasitələrinin nəzərə alınmaması istiqamətində irəli sürdüyümüz təklifin də həmin təkliflərə qoşulmasına görə hörmətli ombudsmana təşəkkür edirik. Eyni zamanda, burada bir prinsipin əsas

götürülməsini vacib hesab edirik ki, ünvanlı sosial yardım verəndə o cür fraqment şəkilli məsələlər işləri pozmaqdan başqa bir şey deyil. Yaxşı olar ki, əsas meyar 285 manatlıq ehtiyac meyarı götürülsün. Gəlirlər 285 manatlıq ehtiyac meyarından aşağıdırsa, bu insanlara ünvanlı sosial yardım qanunla və bütün sənədlərimizlə düşür və həmin insanları get-gələ salmaq lazım deyil.

Burada səslənən bir təklifi də mən yüksək səviyyədə dəstəkləyirəm, çünki kifayət qədər narazılıqlar var. Pensiyaya çıxmağa az zaman qalmış vətəndaşların işdən azad edilməsi halları yolverilməzdir və bunun aradan qaldırılması üçün çox yaxşı işlək reallaşma mexanizmi olan qanunvericilik sənədlərində dəyişikliklərin edilməsini çox vacib hesab edirəm.

Mən məruzəni yüksək qiymətləndirirəm və deputat həmkarlarımı səs verməyə çağırıram. Diqqətinizə görə çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Çox sağ olun, xanım sədr. Hörmətli Səbinə xanım, hörmətli millət vəkilləri, media nümayəndələri. İlk öncə bütün təbriklərə görə mən minnətdarlığımı bildirirəm və onlara qoşularaq demək istəyirəm ki, 2025-ci il martın 5-də ənənəvi olaraq dövlət rəhbəri hörmətli Prezidentimiz bütün qadınlarımıza, respublika qadınlarına öz müraciətində Azərbaycan qadınının tarixi, müasirliyi və gələcəyi ilə bağlı bir çox tövsiyələrini səsləndirmişdir. Biz ona görə də dövlət rəhbərinə öz dərin minnətdarlığımızı bildiririk. Bu göstərir ki, Azərbaycanda, doğrudan da, qadın siyasətinə nə qədər böyük önəm verilir.

Qeyd etmək istərdim ki, təqdim olunan illik məruzə çox yüksək peşəkarlıqla hazırlanmışdır və Ombudsman Aparatının bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir. Təqdim olunan sənəddən görünür ki, qurum həm yerli, həm də beynəlxalq səviyyədə vətəndaşlarımızın pozulmuş hüquqlarının müdafiəsi sahəsində çox səmərəli işlər görür. İl ərzində ombudsman fəal olmuş, çox mühüm tədbirlər və layihələr həyata keçirmişdir. Bütün bu fəaliyyətlər, əldə olunmuş nəticələr və təkliflər çox diqqətlə və ətraflı şəkildə hazırlanaraq Milli Məclisə illik məruzə təqdim edilmişdir.

Mən fürsətdən istifadə edib, Səbinə xanım, Sizə və bütün əməkdaşlarınıza təşəkkür edirəm. Eyni zamanda, bir neçə fikrimi söyləmək istərdim.

Belə ki, hesabatda məhkəmə qərarlarının vaxtında və tam icra olunmaması ilə bağlı geniş təhlil yer almışdır. Xüsusi ilə də aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi artıq neçə ildir ki, aktualdır. Qanunvericiliyə əsasən, aliment, pensiyalar, müavinətlər şəklində uşağa ödənilən məbləğ valideynlərin, onları əvəz edən şəxslərin sərəncamına daxil olur, onlar tərəfindən uşaqların sağlamlığına, tərbiyəsinə və təhsilinə xərclənir. Yəni alimentin təyin edilməsinin əsas mahiyyəti uşağın ehtiyaclarının ödənilməsidir. Məlumdur ki, bir çox borclular aylarla, bəzən illərlə aliment ödəməkdən yayınırlar. Əgər bu uşaqlar arasında xroniki xəstəliyi və ya əlilliyi olan varsa, vəziyyət daha da çətinləşir.

Düzdür, alimenti ödəməyən şəxs üçün, qanunvericilikdə göstərildiyi kimi, inzibati və ya cinayət məsuliyyəti müəyyən edilmişdir. Lakin biz təcrübədə görürük ki, borclu bu və ya digər məsuliyyətə cəlb edilsə də, yenə də

alimenti ödəmir. Burada əsas məsələ uşaqlara layiqli həyat yaşatmaq, onların hüquqlarını qorumaq və eyni zamanda, borclunun məsuliyyətini stimullaşdıracaq bir mexanizm yaradılmasıdır.

İkinci məsələ. Ölkəmizdə 2000-ci ildə qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan tibb müəssisələrinin sayı 313 idi. Lakin 2023-cü ildə onların sayı, demək olar ki, 3 dəfə azalaraq 106 olmuşdur. Əfsuslar olsun ki, son zamanlarda bizim qadınlarımız ana və körpə ölümləri, eləcə də bir çox ayrı problemlərlə rastlaşır və biz bunu müşahidə edirik. Ana və uşaqların sağlamlıqlarının qorunması baxımından belə müəssisələrin sayının artırılması çox vacibdir.

Müəyyən zaman məişət zorakılığına, insan alverinə, erkən nikaha, bullinqə məruz qalmış şəxslər, küçə uşaqları, sağlamlıq imkanları məhdud olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların ailələri ilə sosial-psixoloji və psixoloji-pedaqoji işin təşkili məsələsi önə çəkilir. İllik məruzədə də buna böyük bir yer ayrılmışdır.

Digər bir məsələ. Qərbi azərbaycanlıların tarixi torpaqlarından zorla deportasiya edilməsi ilə əlaqədar, onların hüquqlarının bərpa olunması və dədə-baba yurdlarına qayıtması istiqamətində ombudsman fəaliyyətini daha da gücləndirməlidir. Bütövlükdə, mən də illik məruzəni əhatəli hazırlanmış sənəd hesab edirəm və ona səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sonuncu çıxış. Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov.** Hörmətli xanım sədr, hörmətli Səbinə xanım. Mən də dəyərli həmkarlarımızın 8 Mart – beynəlxalq qadın hüquqlarının müdafiəsi günü ilə bağlı dilə gətirdikləri təbriklərə qoşuluram və səmimi qəlbdən

təbrik edirəm. Eyni zamanda, təmsil etdiyim dairənin də xanımlarını bu gözəl bayram münasibəti ilə səmimi qəlbdən təbrik edirəm və ən xoş arzularımı çatdırıram.

Burada hörmətli həmkarlar Səbinə xanımın çıxışı və müvəkkilin hesabatı ilə bağlı çox vacib məqamlara toxundular. Məsələ bundadır ki, İnsan hüquqları komitəsində biz həmin hesabatı çox ətraflı müzakirə etmişdik. Mən orada bir sıra təkliflərimi səsləndirmişdim, eyni zamanda, bəzi tövsiyələrimi də dilə gətirmişdim. Amma bununla yanaşı, bugünkü çıxışımda orada dilə gətirmədiyim bəzi məsələlərə toxunmaq istəyirəm və düşünürəm ki, bunlar, həqiqətən də, olduqca vacibdir. Çünki təmsil etdiyim 29 saylı Sabunçu 4-cü seçki dairəsində vətəndaşlarla keçirdiyimiz çoxsaylı görüşlərdə vaxtaşırı bilavasitə bu gün ombudsmanın məruzəsində yer alan bəzi məqamlara münasibət bildiririk. O məqamların bir neçəsini xüsusi ilə qeyd etmək istəyirəm.

İlk əvvəl bu bizim bəzi seçicilərimizin faktiki olaraq yaşadığı ünvanda qeydiyyata düşə bilməməsi ilə əlaqədar olan məsələdir ki, hesabatda da geniş yer almışdır. Burada əsas məqam nə ilə bağlıdır? Bildiyiniz kimi, bəzi hallarda əgər daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı yoxdursa, həmin şəxsin həmin ünvana qeydiyyata düşməsində müəyyən problemlər yaranır. Əvvəlki illərdə həmin şəxslər polis orqanlarına məxsus inzibati binalarda müvəqqəti qeydiyyata alınmış şəxslər idi. Bildiyiniz kimi, 3 il bundan qabaq həmin şəxslərin bir qismi müvəqqəti qeydiyyatdan çıxarılmış və yaşadıqları ünvanlarda qeydiyyata düşmələri ilə bağlı tövsiyələr irəli sürülmüşdür. Amma yaşadıqları ünvanlarda daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı olmadığı üçün həmin şəxslərin

sonrakı mərhələdə şəxsiyyət vəsiqələrində göstərilmək şərti ilə qeydiyyat ünvanının qeydə alınmasında müəyyən problemlər yaranmışdır. İndi ayrı-ayrılıqda, fərdi qaydada müəyyən müraciətlər olur, biz də onları yönləndiririk və aidiyyəti strukturlar, sağ olsunlar ki, bu məsələdə dəstək göstərirlər. Amma düşünürəm ki, bu məsələ sistemli şəkildə öz həllini tapmalıdır. Bildiyiniz kimi, vətəndaşın şəxsiyyət vəsiqəsi ən azından onun azadlıq hüququnu və digər hüquqlarını qanunvericiliklə müəyyən edilmiş qaydada sərbəst və maneəsiz təmin edən vacib bir sənəd hesab olunur. Bu baxımdan hətta bir qisim müraciətlər var idi ki, fərz edək, vətəndaşlar şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı eyni problemlə üzləşirlər. Amma şəxsiyyət vəsiqəsinin dəyişdirilməməsi ucbatından digər hüquq və azadlıqlarının təmin olunmasında müəyyən çətinliklərlə üzləşirlər. Bu, xüsusi ilə qeyd etmək istədiyim birinci məsələdir.

İkinci məsələyə münasibət bildirmək istəyirəm. Bu, bilavasitə müvəkkillə vətəndaş cəmiyyəti institutu arasında olan çox sıx əməkdaşlıq əlaqələridir. Bir qədər əvvəl hörmətli Aydın müəllim öz çıxışında qeyd etdi ki, çoxsaylı müraciətlər var və bunun öhdəsindən necə gəlsin. Mən düşünürəm ki, Azərbaycanda vətəndaş cəmiyyəti institutları, xüsusi ilə də qeyri-hökumət təşkilatları kifayət qədər böyük potensiala malikdir və gələcəkdə müxtəlif məşvərətçi şura və digər təsisatlar üzərindən müvəkkillə vətəndaş cəmiyyəti institutları arasında mövcud olan indiki əlaqələrin daha da geniş şəkildə qurulması, inkişaf etdirilməsi üçün çox geniş potensial var. Düşünürəm ki, bizim qeyri-hökumət təşkilatları da bu prosesdə müvəkkilə çox yaxından dəstək ola bilərlər.

Üçüncü məsələ, olduqca vacib bir təklif idi ki, artıq məruzədə öz yerini alıbdır. Bu, aliment fondunun yaradılması ilə bağlıdır. Mən sizə deyim ki, bəli, bizə də çoxsaylı müraciətlər daxil olur və alimentlərin ödənilməsində bizim bəzi xanımlar çox çətinliklərlə üzləşirlər. Alimentin ödənilməməsi və digər məsələlər. Bu, məhkəmə orqanlarının üzərində yenidən çox böyük yükün hasil olmasına, formalaşmasına gətirib çıxaran bir hal olur. Düşünürəm ki, gələcəkdə aliment fondunun yaradılması bu ehtiyacın qismən təmin olunmasına xidmət edər. Dövlət orqanlarının da digər resurslardan istifadə edərək alimentlərin dövlətə, fonda qaytarılması ilə bağlı zəruri işlər həyata keçirməsi mümkündür.

Sonda onu qeyd etmək istəyirəm ki, kifayət qədər əhatəli və kifayət qədər peşəkar hazırlanmış bir hesabatdır. Düşünürəm ki, bizim həmkarların burada qeyd etdikləri kimi, hər birimiz bu hesabata dəstək olmaqla onu qəbul etməliyik. Müvəkkil Səbinə xanıma və onun rəhbərlik etdiyi kollektivin üzvlərinə təşəkkürümüzü bildirərək gələcək fəaliyyətində uğurlar arzulayırıq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, 11 nəfər müzakirəyə yazılmışdı, hamı da çıxış etdi. Mən düşünürəm ki, məsələ kifayət qədər müzakirə olundu. Hörmətli həmkarların çıxışlarında İnsan hüquqları üzrə müvəkkilin məruzəsi haqqında müsbət fikirlər səsləndi. Hamımız bunu eşitdik. Mən də hesab edirəm ki, məruzə yüksək səviyyədə hazırlanıb. Odur ki, hörmətli həmkarlar, xahiş edirəm, biz illik məruzənin nəzərə alınması barədə qərar layihəsinə münasibət bildirək.

Səbinə xanım, bir sözüm olacaq. Burada bir neçə sual və təkliflər oldu. Mən düşünürəm ki, həmişə olduğu kimi, Siz mənim hörmətli həmkarlarımla bunu işçi qaydada sonra müzakirə də edə bilərsiniz. Razısınız? Hörmətli həmkarlar, hamımız bununla bağlı razıyıq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu. İndi isə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən Sizə axırda söz verəcəyəm. Olar?

Hörmətli həmkarlar, məsələni səsə qoyuram, xahiş edirəm, münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi.

Səbinə xanım, bax, indi istəyirsinizsə, minnətdarlığınızı bildirə bilərsiniz. Bundan əvvəl olmazdı. Buyurun.

**Səbinə Əliyeva.** Çox hörmətli Sahibə xanım, dəyərli millət vəkilləri, fəaliyyətimizə göstərdiyiniz diqqətə, səsləndirilən təklif və tövsiyələrə görə mən sizə öz dərin təşəkkürümü bildirirəm. Biz onların bir çoxunu nəzərə alacağıq. Səsləndirilən suallarla bağlı ən qısa zamanda sizə rəsmi cavab ünvanlayacağıq. Çox sağ olun.

Bir daha səsləndirilən təbriklərə görə də ayrıca təşəkkürümü bildirirəm. Sağ olun.

**Sədrlik edən.** Səbinə xanım, çox sağ olun. Biz də Sizə təşəkkür edirik və gələcək fəaliyyətinizdə də uğurlar arzulayırıq. İndi isə Sizi hörmətlə yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Bildiyiniz kimi, ötən ilin dekabr ayında İqtisadi Əməkdaşlıq Təşkilatının Qahirədə keçirilən zirvə görüşündə Azərbaycan yekdil qərarla D8 təşkilatının üzvü qəbul edilmişdir. Bu hadisə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin yeni böyük uğuru və dövlətimizin beynəlxalq aləmdə artan nüfuzunun daha bir göstəricisi olmuşdur. Bu istiqamətdə görülən işlərin davamı olaraq bu gün "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında" qanun layihəsi müzakirəyə təqdim edilir. Bu da bizim gündəliyimizin 2-ci məsələsidir. Qeyd edim ki, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi bir oxunuşda qəbul ediləcək. Bildiyiniz kimi, bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir.

Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Zaur Şükürova söz verirəm. Zaur müəllim, buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. İlk öncə mən də fürsətdən istifadə edərək qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva başda olmaqla bütün Azərbaycan xanımlarını təbrik etmək istəyirəm. Eyni zamanda, xanım sədr, Sizi,

xanım deputat həmkarları, Milli Məclis Aparatının xanım əməkdaşlarını, xanım jurnalistləri təbrik etmək istəyirəm. Xüsusi olaraq da şəhid analarına, şəhid xanımlarına və şəhidlərimizin qız övladlarına təbriklərimi çatdırıram.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, dəyərli media nümayəndələri. Məlum olduğu kimi, Azərbaycan Respublikası keçən il dekabr ayının 19-da İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Misirin paytaxtı Qahirə şəhərində keçirilən 11-ci sammiti zamanı bu təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

İnkişaf etməkdə olan səkkiz müsəlman ölkəsinin əməkdaşlıq platforması olan, o cümlədən strateji tərəfdaş və müttəfiqimiz Türkiyə və Pakistanın üzv olduğu D8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq təşkilata yeni üzv qəbul edilməsi ilə bağlı qərar qəbul olunmuşdur.

Qürur duyuruq ki, bu dövlət, liderimiz cənab İlham Əliyevin həyata keçirdiyi son dərəcə uğurlu, prinsipial və müstəqil xarici siyasət kursu sayəsində məhz Azərbaycan olmuşdur. Bu üzvlük, sözsüz ki, ölkəmizin beynəlxalq aləmdə davamlı olaraq artan nüfuzunun göstəricisidir.

Əsas prinsipləri – münaqişə əvəzinə sülh, qarşıdurma əvəzinə dialoq, istismar, müstəmləkəçilik əvəzinə əməkdaşlıq, ikili standart əvəzinə ədalət, ayrı-seçkilik əvəzinə bərabərlik olan hökumətlərarası D8 təşkilatının məqsədləri, fəaliyyət istiqamətləri Azərbaycan dövlətinin qarşıya qoyduğu hədəflərlə uzlaşır ki, bu da ölkəmizin D8 çərçivəsində üzv dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığının inkişaf etdirilməsində mühüm amillərdən biridir.

Ölkəmizin bu təşkilata qoşulması iqtisadi və ticarət əlaqələrinin inkişafına, habelə qarşılıqlı investisiya imkanlarının genişləndirilməsinə, işğaldan azad edilmiş ərazilərimizin bərpa və quruculuq prosesinə üzv ölkələrin də cəlb olunmasına yeni imkanlar açır. Xüsusi ilə də enerji və mineral ehtiyatlar, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, ticarət, nəqliyyat, turizm, kiçik və orta biznesin inkişafı sahəsində əməkdaşlıq üçün əlverişli potensial mövcuddur.

Bununla yanaşı, Orta Dəhliz, Şimal–Cənub marşrutları üzərində yerləşən Azərbaycanın Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və gələcəkdə Zəngəzur dəhlizi vasitəsi ilə D8 ölkələri üçün mühüm tranzit mərkəzinə çevriləcəyi ehtimalı yüksəkdir. Məhz bu kimi amillər, eyni zamanda, ölkəmizin geostrateji mövqeyi, dinamik inkişaf edən iqtisadi potensialı təşkilatın inkişafına mühüm töhfələr verə bilər.

Ölkəmizin digər beynəlxalq təşkilatlarda uğurlu sədrliyi və fəal üzvlük təcrübələrinə əsaslanaraq inanırıq ki, D8-ə üzvlük dönəmində də ölkəmiz təşkilatın fəaliyyətində mühüm rol oynayacaq və əhəmiyyətli təşəbbüslərlə çıxış edəcək.

Hörmətli deputat həmkarlar, qanun layihəsi ilə bağlı komitə üzvlərinin rəyi müsbətdir. Layihəyə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Gülşən xanım Paşayevaya söz verirəm. Gülşən xanım, buyurun.

**Gülşən Paşayeva,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. İlk olaraq qeyd etmək istəyirəm ki, bu gün təqdim edilən "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikası qanununun layihəsi Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bütün üzvlərinin yekdil qərarı ilə baxılmaq üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Təklif edilmiş qanun layihəsi Azərbaycan Respublikasının 2012-ci il noyabrın 22-də İslamabad şəhərində imzalanmış "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmasını özündə ehtiva edir.

Məlum olduğu kimi, təməli Türkiyə tərəfindən qoyulmuş və katibliyi İstanbul şəhərində yerləşən bu təşkilat, – buna qısa olaraq D8 deyirlər, "D" hərfi "developing" – "inkişaf etməkdə" deməkdir, – 3 qitəni birləşdirərək iqtisadi cəhətdən əhəmiyyətli dərəcədə inkişaf etməkdə olan 8 müsəlman ölkəsini – Banqladeş Xalq Respublikasını, İndoneziya Respublikasını, İran İslam Respublikasını, Malayziyanı, Misir Ərəb Respublikasını, Nigeriya Federativ Respublikasını, Pakistan İslam Respublikasını və Türkiyə Respublikasını bir araya gətirmişdir. Məhz bu səbəblərə görə onu bəzən "islam səkkizliyi" də adlandırırlar.

Bu ölkələrdən ikisi – Türkiyə Respublikası və İndoneziya Respublikası, eləcə də G20-nin – böyük iyirmilər qrupunun üzvüdür. Eyni zamanda, bu ölkələrin hər biri İslam Əməkdaşlığı Təşkilatının üzvləridir.

Bildiyiniz kimi, Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurlu çoxtərəfli əməkdaşlıq həyata keçirir. Ölkəmiz D8 ölkələrinin əksəriyyəti ilə ikitərəfli və çoxtərəfli formatlarda məqsədyönlü fəaliyyət aparır.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ilk dəfə xüsusi qonaq qismində D8 təşkilatının 2017-ci ildə İstanbulda keçirilmiş 9-cu sammitində iştirakı və daha sonra 2022-ci ildə ölkəmizin bu təşkilata üzvlük üçün müraciət etməsi son nəticədə Azərbaycanın 2024-cü il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində keçirilmiş 11-ci sammitdə bu təşkilata yekdilliklə tamhüquqlu doqquzuncu üzv qəbul edilməsi ilə yekunlaşdı. Aydındır ki, bu, Azərbaycanın uğurlu diplomatiyasının təntənəsidir. D8-in tarixində ilk genişlənmə halı olan bu üzvlük Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasətinin, ölkəmizin dünyada artan regional və beynəlxalq nüfuzunun və D8 tərəfindən Azərbaycana göstərilən böyük etimadın məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Bu gün Azərbaycan inkişaf etməkdə olan ölkələrlə qarşılıqlı əlaqələri artırmaqla qlobal Cənub və qlobal Şimal arasında bir körpü rolunu oynamaqda maraqlıdır. Bu baxımdan Azərbaycanın D8 təşkilatına üzvlüyü onun qlobal Cənubda mövqelərinin möhkəmləndirilməsinə, xüsusi ilə də Afrika, Asiya və yaxın Şərqdə inkişaf etməkdə olan ölkələrlə diplomatik əlaqələrinin Cənub-Cənub əməkdaşlığı çərçivəsində daha da inkişaf etdirilməsinə gətirib çıxaracaqdır.

Eyni zamanda, dünyada artıq islamofobiya, ekstremizm və radikalizm hallarını nəzərə alaraq, D8 təşkilatı islam həmrəyliyini gücləndirməsi baxımından da olduqca

əhəmiyyətlidir. Azərbaycanın bu təşkilata üzvlüyü müsəlman dünyasının aparıcı dövlətləri ilə daha sıx mədəni və dini əlaqələri inkişaf etdirmək üçün əlavə bir platforma rolunu oynaya bilər. Son nəticədə bu üzvlük çərçivəsində Azərbaycan nəinki iqtisadi, eyni zamanda, siyasi, mədəni, humanitar, sosial və sair sahələrdə öz əlaqələrini daha da inkişaf etdirə bilər.

Hörmətli həmkarlar, qeyd edilənləri nəzərə alaraq, "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsinə dəstək verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Gülşən xanım. Təklif var, səsə qoyaq. Hamı razıdır bununla?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, onda xahiş edirəm, məsələyə münasibət bildirin. Mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. İndi biz gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ "Korrupsiyaya qarşı mübarizə

haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli Arzu müəllim Nağıyev, bu sizin məsələnizdir. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də bütün xanımlarımızı təbrik edirəm, onlara can sağlığı, gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci və ikinci oxunuşlarda plenar iclasda müzakirə olunub. İkinci oxunuşda bir əlavə maddə ilə qanunvericilik subyekti çıxış etmişdi. O təklif də əlavə olunub və hörmətli həmkarlarımız tərəfindən müzakirə edilmişdir.

Eyni zamanda, hörmətli həmkarlarımızdan bir neçə nəfəri bununla bağlı öz fikirlərini bildirmişdi və onlarla fərdi şəkildə müzakirələrimiz olub. Bundan sonra komitəmizdə müzakirə aparılıb və üçüncü oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Hörmətli Hicran xanım, xahiş edirəm, məsələ haqqında məlumat verin. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli sədr, qanun layihəsi ilə bağlı əlavə rəy və təklif daxil olmayıb. Cari ilin 3 mart tarixində komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sualı, sözü yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələ ilə bağlı məlumatı bizə komitənin üzvü hörmətli Kamal Cəfərov verəcək. Buyurun, Kamal müəllim.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Mən də qarşıdan gələn 8 Mart bayramı münasibəti ilə Birinci vitse-prezident Mehriban xanım başda olmaqla qadınlarımızı təbrik edirəm, can sağlığı və uzun ömür arzulayıram.

Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Arzu müəllim, xahiş edirəm, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Komitəmizin profilinə uyğun olaraq, layihə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa bir maddənin əlavə olunması ilə bağlıdır. Komitəmizdə baxılmışdır, əlavə rəy və təklifimiz yoxdur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Hörmətli həmkarlar, sözü, sualı olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, qanun layihəsinə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz vermək istəyirəm. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsi birinci və ikinci oxunuşlar zamanı təqdim və müzakirə olunmuşdur. Hər hansı bir dəyişiklik olmadığından, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əminə xanım, çox sağ olun.

Arzu müəllim, bu məsələyə sizdə də baxılıb. Xahiş edirəm, Siz də məlumat verin, komitənin rəyini bildirin.

**Arzu Nağıyev.** Hörmətli xanım sədr, komitənin profilinə uyğun olaraq, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində bir sıra əlavələrlə bağlıdır. Əlavə rəy və təklifimiz yoxdur.

Komitədə müzakirə olunub və plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyacağam. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

7-ci məsələ "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bildiyiniz kimi, layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, mən də fürsətdən istifadə edib 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə səslənən bütün təbriklərə qoşuluram. Azərbaycan qadını ən xoş sözlərə, ən xoş arzulara, ən dərin hörmət və ehtirama layiqdir. Bir daha ürəkdən təbrik edirəm.

Təqdim edilmiş qanun layihəsi ilə bağlı bildirmək

istərdim ki, birinci və ikinci oxunuşlarda ətraflı müzakirə edilmişdir. Hörmətli həmkarlarımızın qanun layihəsinə dair hər hansı qeyd və təklifləri olmamışdır. Bunu nəzərə alaraq, qanun layihəsinin üçüncü oxunuşun tələblərinə uyğun olaraq səsə qoyulmasını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, heç kim suala yazılmayıb. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Eldar müəllim, çox sağ olun, bəli, 7 dəqiqəmiz var. İndidən deyirsiniz. Mən tərəfdən qəbuldur. Hörmətli həmkarlar, necə bilirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, çox sağ olun.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 7 məsələ qalır. Onu da deyim ki, bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Yenə də həmişə olduğu kimi, mən xahiş edirəm, çıxışları qanun layihəsinin birinci oxunuşuna uyğun olaraq nəzərdə tutun.

8-ci məsələ Əmək Məcəlləsində və daha 5 məcəllədə, “Sosial sığorta haqqında” Qanunda və digər 12 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və daha 18 məcəllə və qanuna təklif olunan dəyişikliklər həm uyğunlaşma xarakterlidir, həm də qanunvericiliyə yeni bir müddəanın gətirilməsi ilə bağlı maddənin əlavə olunması üçün hazırlanmışdır.

Uyğunlaşma xarakterli dəyişiklik odur ki, layihə “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa və Birləşmiş Millətlər Təşkilatının 2006-cı ildə qəbul etdiyi və Azərbaycan Respublikasının 2008-ci ildə ratifikasiya etdiyi “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya uyğunlaşma xarakteri daşıyır.

Burada məqsəd indiyə qədər müxtəlif qanunlarda olan “18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar” və ya “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” anlayışının “əlilliyi olan uşaq” anlayışı ilə əvəz olunması ilə bağlıdır.

Qanunvericiliyə təklif olunan ikinci qrup dəyişiklik mahiyyət etibarı ilə yeni müddəanın daxil edilməsi ilə əlaqədardır. Belə ki, təklif olunur, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa “Azərbaycan işarət dili” anlayışı gətirilsin və

eşitmə qüsuru olan şəxslərin informasiya almaq hüququ ilə təmin olunması ilə bağlı müddəa əlavə olunsun.

Dediyim məsələ aidiyyəti üzrə bizim komitədə Elm və Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Azərbaycan Respublikası Audiovizual Şurasının mütəxəssislərinin iştirakı ilə geniş müzakirə olunmuşdur. Onu da qeyd edim ki, ölkəmizdə informasiya almaq hüququnun xüsusi vasitələrlə təmin olunmasına ehtiyacı olan şəxslər üçün 5 internat məktəbi fəaliyyət göstərir. Həmin məktəblər Heydər Əliyev Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə lazım olan Brayl əlifbası ilə, audio kitablarla, o cümlədən eşitmə çətinliyi olan şəxslərin istifadəsinə verilən xüsusi kitablar və əlifba ilə təmin olunmuşdur.

Bunu da deyim ki, bu internat məktəbinin məzunları hər il ölkəmizin müxtəlif ali məktəblərinə, kolleclərinə, texniki peşə məktəblərinə qəbul olunmaq imkanları əldə ediblər və hazırda orada öz peşə ixtisaslarına davam edirlər.

Qanuna təklif olunan əsas anlayışlarda 1.0.18-ci maddədə "Azərbaycan işarət dili" anlayışını diqqətinizə çatdırmaq istəyirəm. Bu, "eşitmə qabiliyyəti tam məhdud olan azərbaycandilli şəxslərin qollar, əllər və barmaqlardan eyni zamanda istifadə edilməklə fikirlərini ifadə etməsidir". Onu da mən qeyd etmək istəyirəm ki, işarət dilinin qanunvericiliyə gətirilməsi ilə əlaqədar olaraq qanuna yeni bir maddə, 12-1-ci maddə əlavə olunur. Həmin maddədə eşitmə qüsuru olan şəxslərin informasiya almaq hüquqları geniş şəkildə öz əksini tapmışdır. Bu maddənin tələbinə görə Azərbaycan işarət dili ölkəmizdə ünsiyyət dili kimi rəsmən tanınır və "dövlət büdcəsindən

maliyyələşən, eləcə də ictimai yayımçı statusuna malik olan ümumölkə yerüstü televiziya yayımçıları praym-taym zamanı yayımladıqları informasiya xarakterli proqramlarının Azərbaycan işarət dilinin tərcüməsi ilə müşayiət olunmasını təmin etməlidirlər”.

Eyni zamanda, layihə dövlət tərəfindən audiovizual əsərlərin, o cümlədən eşitmə qüsuru olan uşaqlar üçün nəzərdə tutulan cizgi filmlərinin və digər film və verilişlərin də subtitrlərlə təsvir edilməsini özündə əks etdirir.

Qanun layihəsi əlilliyi olan şəxslərin informasiya almaq hüququnun təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Cənab Prezident tərəfindən elan olunmuş “Konstitusiya və Suverenlik İli” çərçivəsində insan və vətəndaş hüquqlarının daha geniş şəkildə müdafiə olunmasına xidmət edir.

Qanun layihəsi komitə tərəfindən müzakirə olunaraq Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. Hörmətli millət vəkillərindən qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, ətraflı məlumata görə çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 5 komitədə baxılmışdır. Mən indi həmin komitələrin sədrlərinə üz tuturam və söz verəcəyəm. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün komitənin sədri hörmətli Əli müəllim Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun.

Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyi haqqında, Hicran xanım, Siz buyurun, məlumat verin.

**Hicran Hüseynova.** Sağ olun, xanım sədr. Bizim də komitəmizin fikri müsbətdir və Musa müəllim bu barədə çox ətraflı dedi. Məncə, nə isə əlavə etməyə ehtiyac yoxdur. Qəbul olunsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, komitəmizin rəyi müsbətdir. Layihəni dəstəkləyirik.

**Sədrlik edən.** Səhiyyə komitəsinin rəyini bildirmək üçün komitənin sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov**, *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Təklif olunan dəyişikliklər "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa şamil olunur. Səhiyyə komitəsi qanun layihəsini dəstəkləyir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İnsan hüquqları komitəsində də baxılıb. Zahid müəllim, xahiş edirəm, məlumat verin.

**Zahid Oruc.** Hörmətli sədr, qeyd olunduğu kimi, uşaqlarla bağlı çox humanist dəyişiklikdir. Komitəmizin rəyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinin müzakirəsinə başlayırıq. Heç kim yazılmayıb. Ona görə də

mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, söz Sizindir. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, birinci oxunuş üçün təqdim edilmiş qanun layihəsi "Kredit büroları haqqında" Qanunda bəzi konkret dəyişikliklərin edilməsini nəzərdə tutur.

Öncə məlumat vermək istərdim ki, ümumiyyətlə, kredit büroları kredit tarixçəsini təşkil edən məlumatların toplanılmasını, saxlanılmasını, təhlil edilməsini, eyni zamanda, bunların hesabatlarının verilməsini həyata keçirən, təmin edən xüsusi ixtisaslaşmış qurumlardır. Qüvvədə olan qanunvericiliyin mövcud redaksiyasına əsasən, bütövlükdə, kredit bürolarına verilməli olan məlumatların iki qrupu, iki təsnifatı mövcuddur. Bu məlumatlar ya məcburi, ya da könüllü qaydada verilir. Bu məlumatlar məlumat təchizatçıları tərəfindən təqdim olunur.

Qanun layihəsinin mahiyyəti ilə bağlı qeyd etmək istərdim, layihədə edilən əsas dəyişiklik ondan ibarətdir ki, məcburi təqdim edilməli olan təchizatçıların siyahısında dəyişiklik edilir. Mövcud redaksiyada bu siyahıda 100 min manatdan artıq nisyə malın satışını həyata keçirən sahibkarlıq subyektləri məhz bu siyahıda qeyd edilmişdir. Dəyişiklik əsasında həmin subyektlər bu siyahıdan çıxarılır, başqa sözlə, yəni 100 min manatdan çox meyarına bağlanmadan, nisyə mal alğı-satqısını həyata keçirən subyektlər bundan sonra kredit bürolarına kredit tarixçəsini təşkil edən məlumatları könüllülük əsasında təqdim edəcəklər.

Yenə də sual oluna bilər ki, bu dəyişiklik nə ilə bağlıdır? Məsələ bundadır ki, bu məlumatların uçotunun aparılması çətinliklər yaradır və inzibatçılıq sahəsində də problemlər mövcuddur. Məhz bunu nəzərə alaraq, belə bir dəyişiklik edilir. Əvvəllər icbari qaydada bu məlumatların verilməsinə görə inzibati məsuliyyət tədbirləri müəyyən edilmişdi. Bu dəyişikliklərdən sonra avtomatik olaraq bu inzibati tədbirlər də aradan qaldırılır.

Təqdim edilmiş qanun layihəsinin mahiyyəti bundan ibarətdir. Layihənin birinci oxunuşda həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, görürəm ki, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, icazənizlə, mən də həmkarlarıma qoşularaq ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım başda olmaqla Azərbaycan xanımlarını, o cümlədən Sahibə xanım, Sizi, deputat həmkarlarımı, parlamentin qadın əməkdaşlarını, parlamentin fəaliyyətini işıqlandıran xanım media işçilərini və bütövlükdə, Azərbaycan qadınını təbrik edim, onlara uğurlar, möhkəm can sağlığı, xoşbəxtlik arzulayım.

Layihə ilə bağlı deyərdim ki, təqdim olunan qanun layihəsinin məram və məqsədi dövlət başçısı tərəfindən prioritet kimi irəli sürülən enerji resurslarından səmərəli istifadə, yaşıl enerjiyə keçid, ətraf mühitin mühafizəsi və bu kimi məqsədlərə xidmət edir.

Qeyd edim ki, bu istiqamətdə kompleks irimiqyaslı işlər görülür. Bu işlər, eyni zamanda, qanunvericilik,

institusional, təşkilati və sair istiqamətləri əhatə edir. Onu da qeyd etmək istəyirəm ki, müzakirəyə çıxarılan qanun layihəsi həmin kompleks işlərin yalnız bir hissəsidir. Enerji səmərəliliyi məsələsi bir neçə gün öncə, yəni fevral ayının 3-də hörmətli sədrimizin dəstəyi və tövsiyəsi, komitəmizin təşkilatçılığı ilə keçirilən "Enerji səmərəliliyi: nəticələr və gözləntilər" mövzusunda ictimai müzakirədə aidiyyəti qurumların, maraqlı tərəflərin, tanınmış ekspertlərin iştirakı ilə ətraflı müzakirə olundu. Enerji səmərəliliyi yalnız enerji resurslarından qənaətli istifadə deyil, bu, həm iqtisadi inkişaf, həm də ekoloji davamlılıq baxımından olduqca aktual və strateji əhəmiyyət kəsb edir. Hazırda bütün dünyada enerjinin səmərəli istifadəsi ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsi üçün təməl prinsiplərdən hesab olunur. Enerjidən səmərəli istifadənin üstünlükləri ən müxtəlif sahələrə belə təsir edib. Bunlardan bəzilərini qeyd etmək istəyirəm.

İqtisadi faktor kimi, yeni istehsal güclərinin yaradılmasına tələbatın azaldılması, son nəticədə bu sahəyə qoyulacaq investisiyanın digər prioritet sahələrə yönəldilməsi imkanını, iqtisadiyyatda rəqabət qabiliyyətinin gücləndirilməsini, məhsulların, xidmətlərin maya dəyərinin azalmasını, istehlakçıların enerjiyə sərf etdikləri xərclərin azaldılmasını. Ekoloji faktor kimi, ekoloji balansın qorunmasını, təbii resurslardan səmərəli istifadə olunmasını, ətraf mühitə atılan tullantıların azaldılmasını, enerji təhlükəsizliyi faktoru kimi, onun möhkəmləndirilməsini. Enerjidən səmərəli istifadə özü enerjinin yeni bir mənbəyi kimi də çıxış edir.

İctimai müzakirələrin keçirilməsinə verdiyiniz dəstəyə görə, dəyərli Sahibə xanım, bir daha Sizə öz adımdan,

komitəmizin adından minnətdarlığımızı bildirirəm.

Qeyd edirəm ki, közərmə lampalarının istehsalının, satışının və idxalının qadağan olunması barədə məsələ də bu fəaliyyətin tərkib hissəsidir və enerji səmərəliliyinin bütün məqsədləri də bu qanun layihəsinə şamil edilir. Qanun layihəsi barədə həmkarlarımıza cədvəllərlə birlikdə geniş bir arayış təqdim olunmuşdur. Müxtəlif istiqamətlərə aydınlıq gətirən cədvəllər də təqdim olunub. Sadəcə olaraq, bu qanunun əsas mahiyyəti barədə qısaca, kiçicik bir arayış təqdim edirəm, daha doğrusu, iqtisadi əsaslandırmanı çatdırmaq istəyirəm. Bu gün dünyanın bir çox ölkələrində müasir dövrün tələbləri və işıq texnikasının inkişaf prioritetləri nəzərə alınaraq, közərmə lampalarının istehsalı və satışına qadağa qoyulub. Buna səbəb onların aşağı enerjili effektivliyinə malik olması və nəticədə böyük enerji sərfiyyatı ilə atmosferə istilik yaradan qazların atılmasıdır.

LED və közərmə lampalarının texniki və iqtisadi səmərəsinin istehlakı nöqteyi-nəzərindən, – bayaq qeyd etdiyim kimi, cədvəllərdə verilib, baxıla bilər, – 15 min saatlıq istehlak müddəti olan bir LED lampa 17 ədəd min saatlıq közərmə lampasını əvəz edə bilər. Bu, lampa xərcində iki dəfəyə qədər, elektrik enerjisi xərcində isə 8 dəfədən çox fərq yaradır. Müqayisə zamanı müəyyən edilmişdir ki, bir il ərzində istifadə olunan bir milyon közərmə lampası 131,4 milyon kilovat saat elektrik enerjisi istehlak edir və bu həcmdə enerjinin istehsalı üçün 33,23 min ton şərti yanacaq istifadə olunur. Bunun da qazla ekvivalenti 29,1 milyon kubmetr edir ki, bu da istehlak olunur, belə deyək, atmosferə 63,6 min ton karbon emissiyasının atılması deməkdir. Həmin közərmə

lampaları LED lampaları ilə əvəz olunduğu halda, tələb olunan elektrik enerjisinin istehsalı, ona sərf edilən yanacaq və emissiyaların miqdarı təqribən 8,6 dəfə azalacaqdır.

Komitəmizdə də müzakirə zamanı közərmə lampalarının mərhələli qadağan olunması məsələsi müsbət qiymətləndirilmiş, məqsədəmüvafiq hesab edilmişdir. Beləliklə, biz müsbət səs verib bu qanunu qəbul etməklə közərmə lampalarının ölkəmizdə qadağan olunmasının həm istehlakçılara, həm iqtisadiyyata fayda gətirməklə, emissiyaların azaldılmasına və bu sahədə Paris sazişinə əsasən Azərbaycan Respublikasının götürdüyü milli səviyyədə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsinə, həm də 2023-cü ildə Dubayda keçirilmiş COP28 zamanı ölkəmizin qoşulduğu bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi qlobal vədinə öz töhfəmizi verəcəyik. Deputat həmkarlarımı müsbət rəy verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sadiq müəllim, çox ətraflı məlumata görə çox sağ olun.

Hörmətli həmkarlar, kimin sözü, ya da sualı var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoymaq təklifi var. Xahiş edirəm, onda qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında" Qanunda və digər 9 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, yenə də özünüz məlumat verəcəksiniz. Buyurun, Sizin məlumatınızı dinləyirik.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuşun tələblərinə uyğun olaraq, təqdim edilmiş qanun layihəsinin konseptual mahiyyəti, məqsəd və hədəfləri barədə aydın təsəvvür yaratmaq üçün ilk öncə əhəmiyyətli hesab etdiyimiz bir sıra məqamları nəzərinizə çatdırmaq istərdim. Məlumat üçün qeyd edək ki, 2022-ci ildə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun, bir tərəfdən, çirkli pullarla, maliyyə cinayətkarlığı ilə mübarizə sahəsində Azərbaycan dövlətinin iradəsini və uzunmüddətli fəaliyyət strategiyasını əks etdirir, digər tərəfdən də, cəmiyyətin maraqlarının və dövlətin əsaslarının qorunmasına xidmət edir. Təsadüfi deyildir ki, qanunun icrasını təmin etmək məqsədi ilə dövlət başçısı tərəfindən müvafiq fərman imzalanmış, aidiyyəti dövlət orqanlarına konkret tapşırıqlar verilmiş, prosesi əlaqələndirmək üçün Nazirlər Kabineti yanında Koordinasiya Şurası yaradılmışdır. Xatırladım ki, Şuraya uzun müddət Baş nazirin müavini kimi hörmətli Əli müəllim Əhmədov rəhbərlik edirdi.

Qanunun qəbulundan iki ay sonra Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Qeyd edək ki, Milli Fəaliyyət Planında benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün hüquqi əsasların formalaşdırılması və sonrakı mərhələdə onun fəaliyyətinin təmin edilməsi nəzərdə tutulmuşdur.

Möhtərəm Prezidentimiz tərəfindən Milli Məclisə təqdim edilən və birinci oxunuşda müzakirə etdiyimiz qanun layihəsi də elə bu tədbirin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Qanun layihəsi 11 normativ hüquqi aktda dəyişikliklər edilməsini və bununla da benefisiar mülkiyyətçilərin reyestrinin yaradılmasını nəzərdə tutur.

Sual oluna bilər ki, bəs “benefisiar mülkiyyətçi” anlayışı nəyi ehtiva edir? Onun mahiyyəti nədən ibarətdir? Bu anlayış indiyə kimi qəbul edilmiş 12 qanunvericilik aktında, o cümlədən bu qanunda əksini tapmışdır. Təqdim edilmiş layihədə bu anlayış bir daha dəqiqləşdirilir. Bir daha vurğulamaq istərdik ki, “benefisiar mülkiyyətçi” mahiyyətcə təsis edilmiş hüquqi şəxsə faktiki nəzarəti həyata keçirən, ona rəsmi deyil, real sahiblik edən, onun idarə olunmasına bilavasitə və ya dolayı yolla təsir göstərən, təsisatın gəlirlərindən son nəticədə birbaşa faydalanan fiziki şəxslərdir.

Hörmətli həmkarlar, benefisiar mülkiyyətçilik ölkəmiz üçün heç də yeni institut deyil. Belə ki, Azərbaycan qanunvericiliyinə görə hüquqi şəxslərin benefisiar mülkiy-

yətçiləri açıqlanmalı və müvafiq dövlət qurumlarına bu barədə məlumat verilməlidir. Xüsusi ilə öhdəlik daşıyan şəxslər, banklar, sığorta şirkətləri və digər maliyyə və qeyri-maliyyə institutları müştərilərinin benefisiar mülkiyyətçilərini müəyyən etmək üçün 2009-cu ildən müştərini tanı və ya müştəri uyğunluğu prosedurlarını həyata keçirirlər. Hazırkı qanun layihəsi isə hüquqi şəxslərin özləri tərəfindən öz benefisiar mülkiyyətçilərinin müəyyən edilməsini, bu barədə məlumatların aidiyyəti orqanlara ötürülməsini, benefisiar mülkiyyətçi məlumatlarının həqiqiliyinin yoxlanılması prosedurunu, bu prosesdə hüquqi şəxslərin, öhdəlik daşıyan subyektlərin, dövlət nəzarət orqanlarının vəzifələrini və məsuliyyətini müəyyən edir. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu gün Milli Məclisin plenar iclasının gündəliyindəki 14-cü məsələ həm də benefisiar mülkiyyətçiliklə bağlı qanun pozuntularına görə nəzərdə tutulan konkret inzibati məsuliyyət tədbirləri ilə bağlıdır.

Qlobal səviyyədə qəbul edilmiş reallıq bundan ibarətdir ki, çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi və digər maliyyə cinayətləri təkcə ölkələr üçün deyil, həm də beynəlxalq maliyyə sistemi üçün ciddi təhdidlər yaradır. Buna görə də cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə ölkələrin öz iradəsi olmaqla yanaşı, həm də beynəlxalq səviyyədə koordinasiya olunmuş fəaliyyətə, institusional reqlament və mexanizmə əsaslanır. Qeyd edim ki, “The Financial Action Task Force” – maliyyə fəaliyyəti üzrə işçi qrupu bu sahədə fəaliyyət göstərən əsas beynəlxalq təşkilatdır. Əsas missiyası beynəlxalq maliyyə sisteminin təhlükəsizliyini təmin etmək olan bu qurum cinayət yolu ilə əldə

edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə 40 tövsiyəyə əsaslanan beynəlxalq standart müəyyən edib.

Benefisiar mülkiyyətçilərin müəyyən edilməsi, onların reyestrinin yaradılması FATF-ın 24-cü və 25-ci tövsiyələrindən irəli gəlir. Hər bir ölkə beynəlxalq maliyyə sistemində iştirak etdiyinə görə FATF-ın standartlarını qəbul edir, bank və maliyyə sektorunun fəaliyyətini bu prinsiplərə uyğunlaşdırır. Ölkəmiz də FATF-ın tövsiyələrini sistemli şəkildə nəzərə alır, müvafiq qaydalarına əməl edir, bu təşkilatla institusional çərçivədə səmərəli əməkdaşlığı davam etdirir. Həm də bu səbəbdən Azərbaycanın beynəlxalq bazarlara çıxış imkanları indiyə kimi məhdudlaşdırılmamışdır.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, ölkəmizdə həyata keçirilən institusional islahatların mühüm tərkib hissəsi olduğunu, dövlətimizin şəffaflıq təşəbbüslərindən irəli gəldiyini nəzərə alaraq, benefisiar mülkiyyətçilər üzrə mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasını nəzərdə tutan qanun layihəsinin birinci oxunuşda dəstəklənməsini məqsədəuyğun hesab edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Sizin də məlumatınız çox ətraflı idi.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Əli müəllim, özünüz məlumat verəcəksiniz, elə deyilmi? Buyurun, söz Sizindir.

**Əli Hüseynli**. Hörmətli sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də həm FATF-ın, həm də Milli Fəaliyyət Planının tövsiyələrinin qanunvericilikdə nəzərə alınmasının lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə yazılan

yoxdur. Ona görə də mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsidir. Arzu müəllim, Sizin rəhbərlik etdiyiniz komitənin məsələsidir, yəni Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Arzu müəllim, buyurun, Siz məlumat verin, komitənin rəyini bildirin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Cəmiyyətdə son vaxtlar ən çox müzakirə olunan məsələlərdən biri hərbi geyim formasını kimlərin daşımağa ixtiyarının olması barədədir. Yəni söhbət istefaya və ya ehtiyata buraxılan hərbçilərdən gedir. Qanun layihəsi Ali Baş Komandan cənab İlham Əliyevin imzası ilə daxil olub və burada əsas məqam "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 164-cü maddəsində bir sıra əlavələrlə bağlıdır.

Məlumdur ki, həm Birinci Qarabağ müharibəsindən, həm də 44 günlük müharibədən sonra biz həddindən artıq çox ehtiyatda və yaxud istefada olan hərbçilərimizi for-

mada görürük. Onlar hətta müəyyən təşkilatlara müraciət edəndə də o formada gəlirlər. Ona görə də bunun normal bir məcraya yönəldilməsi üçün "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik mütləq şəkildə lazımdır.

Hərbi və xüsusi geyimlərin daşınması, eləcə də onların atributlarından istifadə, bununla bağlı qaydalar mövcud qanunvericiliklə müəyyənləşdirilərək bu sahədə bir sıra məhdudiyyətlər və öhdəliklər nəzərdə tutulur. Qanunvericiliyin müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə hərbi və xüsusi geyimləri daşıyan şəxslərin öhdəliklərinin artırılması üçün onların hüquqi dairələrinin müəyyən edilməsi zərurəti yaranıbdır. Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxslər, daha doğrusu, onların hərbi biletlərində müvafiq qeydlər olur ki, bu formanı daşımağa ixtiyarı var. Bu hüquq verilmiş şəxslər həmin geyim formasını yalnız rəsmi dəvət olunduqları Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan tədbirlərdə, ehtiyata və ya istefaya buraxıldıqları dövlət orqanının (qurumunun) əməkdaşlarının peşə bayramı günlərində, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə, Zəfər Günündə və Anım Günündə daşıya bilərlər. Əsas məsələ bundan ibarətdir. Bu layihə komitəmizdə müzakirə olunmuş və birinci oxunuşa uyğun olaraq, plenar iclasa tövsiyə olunmuşdur. Səs verməyinizi xahiş edirəm. Düşünürəm ki, çox ciddi bir məsələdir.

Bir məsələni də qeyd etmək istərdim, bəzən sual çıxa bilər ki, bunlar necə tənzimlənəcək? Məlum məsələdir ki, müvafiq orqanlar, istər Müdafiə Nazirliyinin hərbi qurumları, hərbi polis, istərsə də digər qurumlar buna

nəzarət edəcəklər. Hətta bununla paralel olaraq İnzibati Xətalar Məcəlləsində də müvafiq dəyişikliklər nəzərdə tutula bilər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Görürəm ki, çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyacağam. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, yenə də mən Sizdən xahiş edəcəyəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, təqdim edilmiş qanun layihəsi iki normativ hüquqi aktda – "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklikləri əhatə edir. Məntiqi ardıcıllığa görə ilk növbədə "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklikləri şərh etmək istərdim.

Dəyişikliklərə görə qanunda yanacaqdoldurma fəaliy-

yəti əlavə edilir və bununla da yanacaqdoldurma fəaliyyəti sahibkarlığın bir növü kimi lisenziyalaşdırılan və icazə tələb olunan fəaliyyət istiqamətinə aid edilir. Təbii olaraq, eyni zamanda, lisenziyanın verilməsinə görə də dövlət rüsumu tətbiq edilməli olduğuna görə "Dövlət rüsumu haqqında" Qanunda da bunun üçün konkret dövlət rüsumu məbləği müəyyənləşdirilir. Bu da 2500 manat həddində nəzərdə tutulur.

Onu da qeyd etmək istərdim ki, "Lisenziyalar və icazələr haqqında" Qanunda bəzi anlayışlara dəqiqlik gətirilir. Xüsusi ilə də "lisenziyalaşdırma subyektləri" adlanan yeni bir anlayış daxil edilir. Lisenziyalaşdırma subyektləri dedikdə 3 tərəf nəzərdə tutulur. Lisenziyanı verən orqan, lisenziyanın və icazənin verilməsi ilə bağlı rəy verən dövlət orqanları. Üçüncü də lisenziyanın şərtlərinə nəzarət etməli olan orqan. Qanunvericilik aktı layihəsində nəzərdə tutulur ki, əgər müvafiq fəaliyyətə nəzarət edən orqan lisenziya sahibi tərəfindən lisenziyanın şərtlərinin yerinə yetirilməməsi hallarını müşahidə edərsə, bu zaman lisenziya verən orqana lisenziyanın dayandırılması ilə bağlı təqdimat verməlidir. Əgər bu təqdimat verilməzsə, bu zaman inzibati məsuliyyət tədbirləri tətbiq edilir. Bir daha yenə təkrar etmək istərdim ki, bu məsələ ilə bağlı inzibati məsuliyyət tədbirləri bu gün plenar iclasın gündəliyindəki 14-cü məsələdə öz əksini tapır. Əsas dəyişikliklər bundan ibarətdir. Hörmətli həmkarlarımız tərəfindən layihənin birinci oxunuşda dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən**. Sağ olun.

Müzakirəyə başlayırıq. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Hör-

mətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Qanun layihəsində yanacaqdoldurma məntəqələrinin lisenziyalaşdırılması məsələsi də var. Vacib bir məsələni demək istəyirəm.

Azərbaycanda fəaliyyət göstərən bir sıra yanacaqdoldurma məntəqələrində vətəndaşların hüquqları ciddi şəkildə pozulur. Maşınlara vurulan yanacağın həcmini müxtəlif üsullarla azaldır və yaxud digər vasitələrdən istifadə edirlər. Şəxsən özüm də bir neçə dəfə "Lukoyl" yanacaqdoldurma məntəqəsində belə bir pozuntu ilə rastlaşmışam. Ya benzini əskik vururlar, ya pulu əskik qaytarırlar, ya da aparatı dayandırıb yenidən benzin vurmağa başlayırlar ki, həcm rəqəmini çaşdırmağa çalışsınlar. Bu hüquq pozuntusu onilliklərdir ki, davam edir. Bu gün də eyni pozuntular baş verməkdədir.

Digər pozuntu isə müxtəlif yanacaqdoldurma məntəqələrində vurulan benzinin həcmi ilə bağlıdır. Bilirsiniz ki, indiki avtomobillərdə elektron sistemdir və dolu çənlə qət olunacaq məsafəni aydın şəkildə göstərir. Necə olur ki, ayrı-ayrı məntəqələrdə bu, 60–90 kilometr fərq edir? Bəzilərində daha çox fərq edə bilir. Çünki benzin oğurlanır və bu rəqəm gündə on tonlarla ölçülür. Mən aidiyyəti qurumları bu sahədə nizam-intizam yaratmağa və vətəndaşların hüquqlarını qorumağa çağırıram. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim. Niyə belə tələsirdiniz? Sizdən başqa yazılan yox idi, elə tez-tez danışdınız. Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 14-cü məsələmiz Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Yenə də mən komitənin sədri hörmətli Əli müəllimə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Adıçəkilən qanun layihəsi çox mühüm bir qanun layihəsidir. Qanun layihəsinə əlavə olunmuş arayışda geniş məlumat təqdim edilmişdir. Ona görə mən qısa tezislərlə fikrimi çatdıracağam.

Birincisi, qüvvədə olan bir neçə qanun layihəsi var, orada qeyd olunub ki, müvafiq qaydaların pozulması məsuliyyət yaradır və ona görə İnzibati Xətalar Məcəlləsinin bir hissəsi ona həsr olunub. Bunlar qüvvədə olan qanunlardır. Eyni zamanda, iki əlavə dəyişiklik artıq bizim bu gün səs verdiyimiz qanun layihələri ilə bağlıdır. Birincini hörmətli həmkarım Azər müəllim məruzə etdi, benefisiar mülkiyyətçinin reyestri ilə bağlıdır. Əgər indi o qaydalar

pozularsa, məsuliyyət yaranacaq.

İkinci isə gündəliyin 13-cü məsələsi ilə bağlıdır. Onu da hörmətli həmkarım Arzu müəllim artıq məruzə etdi və biz səs verdik. Bu, hərbi geyim formasının daşınma qaydasının pozulması ilə bağlıdır. Özü də söylədi ki, inzibati məsuliyyət olacaq və məhz mənim təqdimatımda olan 14-cü məsələdə o məsuliyyət növləri nəzərdə tutulur. Yəni o qaydalar pozularsa, cərimə sanksiyaları tətbiq olunacaq.

Hörmətli həmkarlarım, digər əlavələr, dəyişikliklər isə nəqliyyat sahəsi ilə, xüsusən aviasiya təhlükəsizliyi ilə bağlıdır. Hesab edirəm ki, VI çağırış parlamentdə çox geniş və mükəmməl müzakirələr nəticəsində "Aviasiya haqqında" Qanun qəbul olundu. Biz o zaman, hörmətli sədr, Sizin də tövsiyənizlə AZAL rəhbərliyinin təşkil etdiyi geniş bir ictimai müzakirədə iştirak etdik. Deputatlar, komitə sədrləri, bütün siyasi partiyalar. Bu gün, demək olar ki, "Aviasiya haqqında" Qanun müasir standartlara tam cavab verən bir qanundur və bu gün, həqiqətən də, bütövlükdə, Azərbaycanda aviasiyanın inkişafını, o cümlədən AZAL-da gedən islahatları da müşahidə edirik. Amma digər tərəfdən, hazırda Beynəlxalq Mülki Aviasiya Təşkilatının da tövsiyələri var ki, özündə bir sıra məsuliyyət növlərini ehtiva edir. Buna görə də bu qanun layihəsinin qəbulu pilotsuz uçuş aparatı da daxil olmaqla hava gəmisinin hərəkət təhlükəsizliyinə və istismar qaydalarına riayət edilməsinə, hava məkanında icazəsiz uçuşların qarşısını almağa, mülki aviasiyada sertifikatlaşma tələblərinə, aviasiya hadisələrinin və insidentlərin ətraflı və obyektiv araşdırılmasına, o cümlədən aviasiya personalının sağlamlıq vəziyyəti və hazırlığı ilə əlaqədar bir çox məsələlərə riayət olunmasına gətirib çıxaracaq. Yəni orada

konkret tələblər mövcuddur.

Nəhayət, İnzibati Xətalar Məcəlləsinə edilən iki əlavə. Onun biri dəmir yolu avadanlığının zədələnməsinə görə məsuliyyəti nəzərdə tutur, digəri isə digər nəqliyyat vasitələrinin dəmir yolunu keçmə qaydalarının pozulması ilə bağlı məsuliyyəti nəzərdə tutur ki, bu da baş verən insidentlərin qarşısını almağa yönəlmişdir.

Beləliklə, hesab edirəm ki, həm Cinayət Məcəlləsində, həm də İnzibati Xətalar Məcəlləsində təqdim olunmuş əlavə və dəyişikliklər, bütövlükdə, bu sahədə, yəni xüsusən də nəqliyyat, aviasiya sahəsində mövcud insidentlərin, inzibati xətaların qarşısının effektiv alınmasına xidmət edəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Çıxışa yazılan yoxdur və mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, sabah qadınlar gününü qeyd edəcəyik və onu da deyim ki, bu gün burada bir çox təbriklər səsləndi. Bizim hörmətli həmkarlarımız bizi təbrik etdilər və qadınların ünvanına səslənən bütün

təbriklərə görə mən Milli Məclisin adından sizə öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, onu da qeyd etmək istəyirəm ki, hər bir cəmiyyətin inkişaf səviyyəsi və onun potensial imkanları bir çox cəhətdən qadınların vəziyyəti ilə müəyyən olunur. Bunu biz hamımız çox yaxşı bilirik. Çünki qadınlar ailə və təhsildən başlayaraq, siyasətə, elmə, incəsənətə qədər həyatın bütün sahələrində mühüm rol oynayırlar.

Hörmətli həmkarlar, mən bayram münasibəti ilə Milli Məclisin qadın deputatlarını və əməkdaşlarını, burada bizim fəaliyyətimizi işıqlandıran qadın media mənsublarını, – onlar bizimlə bərabər işləyirlər, – bütün Azərbaycan qadınlarını ürəkdən təbrik edirəm və onlara möhkəm can sağlığı, firavanlıq və ailə səadəti də arzulayıram.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qadın hüquqlarının müdafiəsi, dövlət və cəmiyyət həyatında qadınların rolunun gücləndirilməsi ilə bağlı fəaliyyəti qadınların uğurlarına böyük töhfələr verir. İcazə verin, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə çox hörmətli Mehriban xanıma Milli Məclisin adından təbrik məktubu ünvanlayaq və ona dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzulayaq. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bununla da bizim bugünkü iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Bizim növbəti iclasımız ayın 14-də olacaq. Onu da xatırladım ki, gələn iclasda biz hökumətin hesabatını dinləyəcəyik. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***7 mart 2025-ci il***

**Ceyhun Məmmədov.** Mən də başda Birinci vitse-prezident Mehriban xanım Əliyevanı, hörmətli Sahibə xanım, Sizi, xanım həmkarlarımızı, şəhid ailələrini və bütün Azərbaycan xanımlarını təbrik edirəm.

Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev Türkiyəyə səfər edərək Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə İğdır–Naxçıvan qaz kəmərinin açılışında iştirak etdi. Beləliklə, Azərbaycan və Türkiyə qardaşlığını daha da gücləndirən növbəti mühüm layihənin icrası uğurla yekunlaşdı.

Prezident İlham Əliyev çıxışında bir çox tarixi faktlara istinad edərək tarix boyu Azərbaycan xalqının başına gətirilən müsibətlərdən ətraflı bəhs etdi.

1990-cı illərin əvvəllərində Naxçıvan çox ağır vəziyyətdə idi. Ermənilərin əsas məqsədi Naxçıvanı i
edərək tarixi torpaqlarımızı Ermənistana ilhaq etmək
Naxçıvanı işğaldan, ağır durumdan məhz Heydər Əliyev xilas etdi. Heydər Əliyev hakimiyyətə mütləq gəlməli idi. Ancaq bu baş verməsə idi, bu gün nə Azərbaycan, nə də Naxçıvan var idi. Bütün bu bəlalardan Azərbaycan xalqını Ulu Öndər Heydər Əliyev xilas etdi.

Bu gün Azərbaycan və Türkiyə bütün platformalarda bir yerdədirlər. İki ölkənin ciddi səyləri nəticəsində bu gün Türk Dövlətləri Təşkilatı dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından birinə çevrilibdir. Bu gün göstərilən birgə səylər gələcəkdə münasibətlərin inkişafına və möhkəmlən-

məsinə öz ciddi töhfəsini verəcək. Bunun üçün çox geniş imkanlar var.

Bu gün iki qardaş dövlət müsəlman dünyasının iki lider dövlətinə çevrilib. Müsəlman dünyasının problemlərinin həlli üçün birgə səy göstərirlər. Eyni zamanda, Azərbaycan–Türkiyə birgə əməkdaşlığı bu gün bölgədə və müsəlman dünyasında sabitləşdirici faktora çevrilib.

Bu gün Azərbaycanın yaratdığı yeni reallığı artıq bütün dünya qəbul edib. Ermənistanın da bu reallığı qəbul etməyinin vaxtı çoxdan çatıb. Ermənistan havadarlarına güvənərək bölgədə yeni eskalasiya yaratmaqdan çəkinməli, tarixdə baş verən hadisələrdən nəticə çıxarmalı, Azərbaycanın səbri ilə oynamamalı, Zəngəzur dəhlizinin ən qısa vaxtda açılmasına şərait yaratmalıdır. Ermənistan 10 noyabr razılaşmasında bu öhdəliyi üzərinə götürüb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, onsuz da tez və ya gec bu dəhliz açılacaq. Bu dəhlizin açılmasına heç kim mane olmayacaq. Ermənistanın Baş naziri dolambac yollarla bağlı təkliflərə də son qoymalıdır.

Yaşasın Azərbaycan–Türkiyə qardaşlığı, türk dünyasının birliyi və həmrəyliyi!

* * *

Azərbaycanın D-8-ə qəbul edilməsi ölkəmizin növbəti böyük uğurudur. Hazırda dünyada 50-dən artıq müsəlman ölkəsi var. Bu dövlətlər arasından ilk sırada məhz Azərbaycanın D-8-ə üzv qəbul edilməsi həm də Azərbaycanın artan nüfuzunun, gücünün, çəkisinin göstəricisidir.

Azərbaycan hər zaman müsəlman dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verib. Şərqdə ilk demokratik respublika quran, qadınlara azadlıq hüququ verən də məhz

Azərbaycan olub. Azərbaycan xalqı islam mədəniyyətinin formalaşmasında müstəsna rol oynayıb, müsəlman dünyasına böyük tarixi şəxsiyyətlər bəxş edib.

Azərbaycan heç zaman müsəlman dünyasını narahat edən məsələlərə laqeyd və biganə yanaşmayıb. Onlardan heç zaman dost və qardaş dəstəyini əsirgəməyib. Bu, həm də ölkəmizin islam dəyərlərinə nə qədər sadiq olduğunu göstərir.

1990-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun atdığı ilk addımlardan biri Azərbaycanın İslam Əməkdaşlığı Təşkilatına üzv olması oldu. Həmin dövrdən başlayaraq əlaqələrimiz sürətlə inkişaf etməyə başladı. Sonrakı dövrdə bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Məhz bu siyasət nəticəsində İslam Əməkdaşlığı Təşkilatı hər zaman Azərbaycanın yanında oldu, onun haqlı mövqeyini dəstəklədi.

Bu gün məhz Azərbaycanda həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan müsəlman dünyasının lider dövlətlərindən birinə çevrilib. Bu gün Azərbaycan Türkiyə ilə birlikdə müsəlman dünyasını narahat edən hər bir məsələyə həssas münasibət göstərir. Suriyada hakimiyyət dəyişikliyi baş verdikdən sonra dost və qardaş ölkəyə ilk yardım edən, bu ölkənin liderini səfərə dəvət edən ilk ölkələrdən biri də məhz Azərbaycan oldu.

Heç şübhəsiz ki, Azərbaycanın bu quruma üzvlüyü ölkəmizin dünyada nüfuzunun artmasına öz ciddi töhfəsini verəcək. Təkcə yaxın dövrün xronikasına baxanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bölgədə yeni reallıq yaratdıqdan sonra ölkəmizə marağın daha da artdığını görürük.

Təkcə son günlər Somalinin, Qvineya-Bisaunun prezidentlərinin, Pakistanın Baş nazirinin Azərbaycana səfəri və imzalanan sənədlər dövlətimizin dünyada nüfuzunun son illər daha da artdığını göstərir. Azərbaycan bütün bu uğurlara 30 il müddətində nail olub. Hazırda müstəqillik tarixi 100 il olan bir çox ölkələr nə dövlət, nə də ordu qura biliblər. Qarşıda isə hələ böyük nailiyyətlər durur.

**Malik Həsənov.** Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi geniş tərtib olunub və insan hüquqlarının qorunmasına dair bütün istiqamətləri əhatə edən məlumatlar əks olunub. Ombudsman təsisatı digər təsisatlarla müqayisədə gənc təsisatlardan hesab oluna bilər. Təsis olunduğu dövrdən günümüzədək bu qurumun fəaliyyət istiqamətlərinin genişləndirilməsi baxımından xeyli işlər görülmüş, səmərəli qanunvericilik bazası formalaşdırılmışdır. Bildiyimiz kimi, Vətən müharibəsindən sonra torpaqlarımızın azad olunması kimi tarixi hadisə həm də imkan vermişdir ki, erməni vəhşiliyinin qurbanları haqqında faktoloji materiallar əldə edək. Bu gün işğaldan azad edilmiş ərazilərimizin əksəriyyətində yeni kütləvi məzarlıqlar, amansızcasına qətlə yetirilmiş soydaşlarımızın qalıqları üzə çıxarılır. Üzə çıxarılmış hər bir fakt dünyada analoqu olmayan bəşəri cinayətlərin danılmaz maddi sübutlarıdır. Hesab edirəm ki, itkin düşmüş hesab edilən və bu günə kimi onların sonrakı taleyi barədə erməni tərəfinin heç bir məlumat vermədiyi ən sonuncu soydaşımızın nəşi tapılmayana kimi belə kütləvi məzarlıqlar aşkarlanacaq.

Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq, Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkün-

lərin işğaldan azad olunmuş ərazilərə qayıdışı, ərazilərin minalardan təmizlənməsi müasir yaşayış, iqtisadi fəaliyyətin nəqliyyat-kommunikasiya xətlərinin bərpası işlərinin davam etdirilməsi və həmin şəxslərin hüquq və azadlıqlarının bərpası baxımından da olduqca əhəmiyyətlidir.

Təqdim edilən məruzənin bütün bölmələri üzrə əks olunmuş informasiyanı ümumiləşdirsək və müqayisə etsək, görərik ki, bütün istiqamətlər üzrə əvvəlki dövrlərə nəzərən artan dinamika müşahidə edilir. Bu da ölkəmizdə demokratikləşmə prosesinin hər ötən gün dərinləşməsinin və dövlət başçısı möhtərəm cənab Prezidentimizin iradəsinin təzahürlərindən biridir.

Məruzədən görürük ki, ayrı-ayrı hüquqpozmalar və problemlər fonunda həll edilən məsələlərin və bərpa olunan haqsızlıqların sayı artır, hüquqazidd əməllərin statistikasında isə azalma gedir. Ən maraqlısı məruzənin hesabat hissəsindən daha çox, onun tövsiyələr və təkliflər bölümündə qaldırılan məsələlər daha önəmli oldu. Çünki bu təklif və tövsiyələr bu işlə birbaşa məşğul olan qurumdan gəldiyindən real mənzərəni əks etdirir. Eyni zamanda, fəaliyyətdə səmərəliliyin artırılması yollarını özündə əks etdirməklə gələcəkdə daha uğurlu fəaliyyətin qurulmasına yardımçı olacaqdır. Çünki bu təkliflər və boşluqlar konkret iş prosesi zamanı yaranan və onların həlli yollarının düşünülməsi zamanı ortaya çıxanlardır.

İl ərzində həyata keçirilmiş fəaliyyətin nəticələri onu deməyə əsas verir ki, insan hüquq və azadlıqlarının səmərəli təmini məqsədi ilə müraciətlərin təhlili prosesində formalaşmış səlahiyyətli dövlət qurumlarına təqdim edilmiş, habelə illik məruzədə öz əksini tapmış təklif və tövsiyələrin həyata keçirilməsinə diqqət daha da artırıl-

malıdır.

Ümid edirik ki, bu məruzə dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı sistemli və davamlı irəliləyişə, habelə hüquq mədəniyyətinin yüksəlməsinə töhfə verəcəkdir.

**Tamam Cəfərova.** Qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə başda Birinci vitse-Prezident Mehriban xanım Əliyeva olmaqla bütün qadınları təbrik edir, can sağlığı, firavanlıq arzu edirəm.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü il üzrə məruzəsi, ümumən, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun tələblərinə müvafiq olaraq hazırlanmışdır. Məruzə ombudsmanın fəaliyyəti çərçivəsində səlahiyyətlərinə aid məsələlər üzrə fəaliyyətini geniş şəkildə təsvir edir. Qeyd etmək lazımdır ki, ombudsman institutu bütün dünyada demokratik cəmiyyətin mühüm bir elementi kimi qəbul olunur. Azərbaycanda bu institut 2002-ci ildə məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb.

Təqdim olunan məruzədən də göründüyü kimi, ombudsman institutu öz fəaliyyətində ilk növbədə şəffaflıq, aşkarlıq, qanunun aliliyi, ədalət prinsiplərini rəhbər tutur. Hörmətli Səbinə xanımın məruzəsində gördük ki, bu instituta vətəndaşların müraciətlərinin sayı ildən-ilə artır. 2024-cü ildə bu quruma 29371 müraciət daxil olub. Əlbəttə, bu, ombudsmanın fəaliyyətinin qiymətləndirilməsi baxımından meyar ola bilər. Hamımız yaxşı bilirik ki, müraciətlərini sayının çox olması əhalinin bu quruma olan etimad və inamının göstəricisidir.

Ombudsmanın 2024-cü il üçün məruzəsi kifayət qədər əhatəli, obyektiv və sistemli  hazırlanmışdır. İnsan hüquq-

larına dair kifayət qədər faktoloji materiala, eyni zamanda, həm də konkret sahələr üzrə əhatəli məlumatlara əsaslanır. Eyni zamanda, məruzənin sonunda 85 təklif və tövsiyə irəli sürülüb. Əlbəttə ki, bunu müsbət qiymətləndirməliyik. Parlament olaraq ötən il daxil olan müraciətlərin, eləcə də təkliflərin ilbəil daha çox hissəsinin müsbət həll olunmasına təsir etmək haqda düşünmək, görülən işlərin nəticəliliyi və səmərəliliyi baxımından qiymətləndirilməsi müstəvisinə keçmək yeni dövrün çağırışları baxımından mühüm əhəmiyyət kəsb edir.

Məruzədə mövcud problemlərin konkret işlərə və faktlara əsaslanaraq təqdim edilməsi göstərir ki, ölkəmizdə mülki hüquq, əmək hüququ, sosial təminat hüququ, mənzil hüququ, təhsil hüququ, qadın, uşaq və ahılların hüququ və sair bu kimi istiqamətlərdə nə qədər ciddi problemlər var və ombudsmanın çıxışında bu məsələlər xeyli dərəcədə işıqlandırıldı. Eyni zamanda, məruzə ilə tanış olarkən müvafiq dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının adları çəkilməklə nöqsanların göstərilməsindən qurumun fəaliyyətində aşkarlıq və şəffaflığın yüksək səviyyədə təmin olunduğuna əmin oluruq. Nöqsanların qeyd olunması ilə yanaşı, onların həlli yollarının təklif olunması, həmin nöqsanların təkrarlanmaması üçün çıxış yollarının tapılması istiqamətində mövqe nümayiş olunması xüsusi ilə təqdirəlayiq haldır.

Məruzədən irəli gələn bəzi məqamları xüsusi ilə vurğulamaq istəyirəm. Belə ki, müxtəlif beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş fundamental insan hüquqlarından biri kimi təhsil hüququ şəxsiyyətin, cəmiyyətin və dövlətin formalaşmasında və inkişafında mühüm rol oynayır. Məruzədə də qeyd olunduğu kimi, həyata

keçirilən bütün islahatlara baxmayaraq, təhsil sisteminin müxtəlif sahələrində bəzi problemlər qalmaqdadır. Bunlardan ən vacibi, düşünürəm ki, orta ümumtəhsil məktəblərində siniflərdə şagird sayı məsələsidir. Burada iki tendensiya özünü göstərir. Əsasən, paytaxt Bakıda siniflərdə şagird sıxlığı, ucqar rayonlarda isə siniflərdə şagird sayının azlığı ucbatından siniflərin komplektləşdirilməsi problemi özünü göstərir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı normaları" haqqında 2020-ci il 22 iyun tarixli 212 nömrəli Qərarında göstərilmişdir ki, dövlət ümumi təhsil müəssisəsində ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə siniflər (təmayül siniflər istisna olmaqla) şagirdlərin sayı 20 nəfərdən az olmamaqla təşkil edilir və şagird sayı 30-dan yuxarı olduğu təqdirdə və ya sinif otağının ölçüsü imkan vermədikdə həmin sinif üzrə ikinci paralel sinif təşkil edilir. Buna baxmayaraq, tez-tez mətbuatda siniflərdə şagird sıxlığının tədrisin keyfiyyətinə mənfi təsir göstərdiyi barədə ictimaiyyət nümayəndələrinin fikirləri ilə qarşılaşırıq. Müəllimlər və valideynlər haqlı olaraq bu məsələdə narazılıqlarını ifadə edirlər. Aydın məsələdir ki, bir müəllim 45 dəqiqə ərzində 30 nəfər şagirdə eyni diqqətlə yanaşa bilməz və bu qədər şagirdin mənimsəmə göstəricilərində də ciddi fərqin olması qaçınılmazdır.

Digər bir məqam isə rayonlarda kənd məktəblərində siniflərin komplektləşdirilməsi məsələsidir. Məruzədə də bu barədə geniş təhlilə yer verilib. Əlbəttə, bu məsələ də yuxarıda qeyd etiyim normalara əsasən həyata keçirilir. Lakin bu həmin kəndlərdə yaşayan insanların narazılığına səbəb olmaqla yanaşı, məhz övladlarının yaxşı təhsil

alması üçün valideynlərin yaşadıqları kəndləri tərk edib şəhərlərə köçməsinə səbəb olur. Bəzən kiçik bir problem kimi görünən bir məsələ özü ilə kompleks problemlər gətirir. Ona görə də, düşünürəm ki, ombudsmanın məruzəsində qeyd olunan bu məsələ ilə əlaqədar aidiyyəti dövlət qurumu tərəfindən müvafiq addımların atılması, təhsilin keyfiyyətinin təmin olunması, təhsilalanların dövlət təhsil standartlarına uyğun bilik və bacarıqlara yiyələnmələri üçün bərabər imkanlar yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Digər bir məsələ isə məktəblərdə psixoloq ştatının artırılması ilə əlaqədardır. Son zamanlar baş verən neqativ hallar məktəblərdə ixtisaslaşmış psixoloqlara ehtiyacın ciddi bir zərurətə çevrildiyi reallığını ortaya qoyur. Bu istiqamətdə ombudsmanın məruzəsindən irəli gələn təklifləri dəstəkləyir, eyni zamanda, məktəblərdə psixoloq ştatının 100 şagirdə 1 psixoloq nisbətində müəyyənləşməsinin daha faydalı olacağını hesab edirəm.

Narahatedici digər bir məsələ isə ölkəmizdə demoqrafik vəziyyətin, gender tarazlığının pozulması ilə əlaqədardır. Bildiyiniz kimi, BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12–15 min nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin demoqrafik vəziyyət və gender bərabərliyi baxımından çox ciddi nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər.

Hörmətli Səbinə xanıma sualım ondan ibarətdir ki, ölkədə gender bərabərliyinin təmin olunması və demoqrafik vəziyyətin bioloji normaya uyğunlaşdırılması istiqamətində

ombudsman institutu hansı tədbirlər həyata keçirir, bu məsələ onların iş planında necə öz əksini tapmışdır?

Qeyd etmək lazımdır ki, bütövlükdə, ombudsman institutu fəaliyyətini beynəlxalq standartlara uyğun, ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmlənməsi və insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin olunması istiqamətində uğurla həyata keçirir. Bu baxımdan ombudsman institutunun regional mərkəzlərinin fəaliyyətinin iqtisadi rayonlarımızın bölgüsünə uyğun olaraq, sayının artırılmasını məqsədəuyğun hesab edirəm. Bütövlükdə, ombudsmanın illik məruzəsini qənaətbəxş hesab edir, müsbət səs verəcəyimi bildirirəm.

## MÜNDƏRİCAT

7 mart 2025-ci il ........................................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................. 100

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

İkinci sessiya
Yaz

23-cü cild

7 mart 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  6,5. Sifariş 17. Tiraj 150.